# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**1970-1985-ci illər: dövlət suverenliyi və iqtisadi müstəqilliyimizin təməli**



4

SƏS

№ 122 (7290)

15 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

# Azərbaycan - Suriya: münasibətlərdə yeni mərhələ



2

**Prezident İlham Əliyev: "Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər açılıb"**

# Trampın yeni tarifləri Avropanı silkələdi!

*NATO-nun baş katibi ABŞ-a uçdu*



3

**"Azərbaycanı silahsızlaşdırmaq, qorxutmaq, susdurmaq olmaz"**



8

**Qələbələrin uca zirvəsi**



9

**Zülmətə bürünən küçə - İşıqları niyə yandırılmır?**



13

**Bu gün 40 dərəcə isti olacaq - XƏBƏRDARLIQ**



16

**Ehsan süfrəsi, yoxsa ziyafət?**



4

# Azərbaycan - Suriya: münasibətlərdə yeni mərhələ

## Prezident İlham Əliyev: "Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər açılıb"

***Azərbaycanın xarici siyasətində ikitərəfli əlaqələrin inkişafı və strateji tərəfdaşlıqların qurulması həmişə prioritet məsələlərdən biri olub. Bu siyasət çərçivəsində, xüsusilə Yaxın Şərq və ərəb ölkələri ilə əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmiz yeni bir dövrə qədəm qoyub, beynəlxalq münasibətlər sistemində daha fəal, təşəbbüskar və ədalət prinsiplərinə söykənən mövqe nümayiş etdirir. Bu günlərdə Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl-Şaraanın Azərbaycana səfəri ikitərəfli əlaqələrin yeni mərhələyə qədəm qoymasının təzahürüdür.***





İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşü olub. Prezident İlham Əliyev Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin inkişafında mühüm əhəmiyyət kəsb edəcəyinə ümidvar olduğunu bildirib. Uzun illər ərzində Azərbaycana münasibətdə qeyri-dost siyasəti həyata keçirən Suriyadakı əvvəlki hökumətin vaxtında münasibətlərimizdə durğunluğun olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər açılıb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Baş nazirin müavininin rəhbərliyi ilə nümayəndə heyətinin Suriyaya səfərini xatırladan Prezident İlham Əliyev həmin səfər zamanı keçirilən görüşlərdə müxtəlif sahələrdə əməkdaşlığımızın inkişafı ilə əlaqədar layihələrin müzakirə edildiyini vurğulayıb. Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Antalya Diplomatiya Forumu çərçivəsində dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlayıb. O, Azərbaycanın Suriyaya göstərdiyi qardaşlıq dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Əhməd Əl Şaraa əvvəlki hakimiyyətin Suriyanın bir çox ölkələrlə, o cümlədən Azərbaycanla əlaqələrə xələl gətirdiyini təəssüflə qeyd edib. O, ölkəsinin Azərbaycanla siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu diqqətə çəkib. Azərbaycanın əldə etdiyi uğurlar və torpaqlarımızın işğaldan azad edilməsi münasibətilə təbriklərini çatdıran Suriyanın keçid dövrü Prezidenti ölkəmizin ötən əsrin 90-cı illərində çətinliklərlə üzləşdiyini, amma onların öhdəsindən layiqincə gəldiyini və hazırda inkişaf etdiyini vurğulayıb.

Suriya ilə Azərbaycanı bir-birinə tarix, sivilizasiya, mədəniyyət və əməkdaşlıq telləri bağlayır. Bu münasibətlərin bünövrəsi hələ İpək Yolu əsrində, müstəqillik qazandığımızdan əvvəlki və sonrakı dövrlərdə qoyulub. Ulu Öndər Heydər Əliyev hələ SSRİ dönəmində Azərbaycanın rəhbəri olarkən Suriya prezidenti Hafiz Əsədlə bir neçə dəfə görüşüb. O, 1972-ci ildə Suriyada səfərdə olarkən prezident Hafiz Əsədlə görüşüb və Hələb şəhərində dahi Azərbaycan şairi Nəsiminin qəbrini ziyarət edib. Elə o illərdə Suriya Prezidenti Hafiz Əsəd də SSRİ-yə rəsmi səfəri çərçivəsində Azərbaycanda da olub və Heydər Əliyevlə görüşüb. 1984-cü ilin martında isə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Suriya paytaxtında səfərdə olub və Prezident Hafiz Əsədlə Yaxın Şərqdə yaranmış vəziyyəti müzakirə edib.

Xatırladaq ki, Suriya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci ilin martın 28-də qurulub. Rəsmi Bakı İŞİD terror qruplaşmasının fəaliyyətinə qarşı çıxıb. Sonrakı illərdə, vətəndaş müharibəsi zamanı Bəşşar Əsəd rejimini müdafiə etməyib. Əksinə, münaqişənin dinc yolla həllinin tərəfdarı kimi çıxış edib.

Bu əlaqələr qurulandan 20 il sonra kəsilib. Ölkənin səfiri və bütün səfirlik əməkdaşları 2012-ci ilin avqustunda Dəməşqi tərk edib. Diplomatik missiyanın ölkəni qeyri-müəyyən müddətə tərk etməsi təhlükəsizlik və Suriyadakı mövcud durumla bağlı idi.



İki ölkə arasında əməkdaşlıq xüsusilə Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar vasitəsilə həyata keçirilir. BMT-nin İnsan Hüquqları Şurasının ikinci sessiyasında Suriyanın irəli sürdüyü "Suriyanın işğal olunmuş Colan təpələri. İnsan hüquqlarının vəziyyəti" adlı qətnamə üzrə keçirilmiş səsvermədə Azərbaycan qətnamənin lehinə səs verib. Suriya da BMT və İKT çərçivəsində həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib.

### AZƏRBAYCAN QAZININ TÜRKİYƏ ƏRAZİSİNDƏN SURİYAYA İXRACI LAYİHƏSİ HƏYATA KEÇİRİLƏCƏK

Görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edilib, Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilib. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanıb və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunub. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırılıb.

Müasir dünyamızda enerji təhlükəsizliyi vacib məsələlərdəndir. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq öz nəticələrini verir. Xüsusi olaraq qeyd edək ki, ölkəmizin enerji siyasəti bölgədə regional əməkdaşlığın genişlənməsi üçün etibarlı təminatçıdır.

Avropa İttifaqı ilə Azərbaycan enerji münasibətlərinə dair Anlaşma Memorandumunun imzalanması Azərbaycanın Avropa İttifaqı ilə strateji əməkdaşlığına yeni töhfələr verəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin yaranan yeni çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, layihələr, islahatlar diqqətdən kənarda qalmır. Azərbaycan böyük inkişaf yolundadır.

Əhməd Əl Şaraa hazırda ölkəsinin üzləşdiyi ciddi enerji problemlərinin həllində Azərbaycanın töhfəsinin əhəmiyyətini vurğulayaraq, bunun Suriyanın inkişafına xidmət etdiyini deyib.

Mümkün əməkdaşlıq sahələrindən biri Suriyanın enerji infrastrukturunun yenidən qurulmasıdır. Azərbaycanın neft-qaz sənayesində böyük təcrübəsi var və bu sahədə Suriyada müəyyən layihələr həyata keçirmək potensialına malikdir.

### BAKI-DƏMƏŞQ MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ

Söhbət zamanı Azərbaycanla Suriya arasında humanitar, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa toxunulub, o cümlədən suriyalı tələbələrə Azərbaycanda təqaüdlərin verilməsi və mədəni abidələrin bərpası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Hazırda Suriyanın təhsil müəssisələrində Azərbaycandan 150-yə qədər tələbə təhsil alır. Azərbaycanlı tələbələr əsasən ərəb dili və şəriəti öyrənirlər. Azərbaycanda isə 40 yaxın suriyalı gənc mühəndis və həkim peşəsinə yiyələnmək üçün ali təhsil müəssisələrində təhsil alır.

İki ölkə arasında indiyədək müxtəlif sahələrdə əməkdaşlıqla bağlı 20 sənəd imzalanıb. Rəsmi mənbələrə əsasən, 2023-cü ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi ümumilikdə 461 min 55 dollar olub, bunun 160 min 49 dolları Azərbaycanın Suriya ilə ixracına, 301 min 6 dolları isə idxalına aiddir. Azərbaycanın Suriyadakı diplomatik varlığı humanitar, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığı gücləndirmək üçün vacib platforma rolunu oynayır. Ötən il dekabrın 30-da Suriyaya ilk humanitar yardım karvanının göndərilməsi Bakı-Dəməşq münasibətlərinin həm də humanist əsaslara söykəndiyini göstərir.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində təcrübəsinin olduğu nəzərə alınaraq vurğulanıb ki, bu xüsusda Azərbaycan Suriyanın postmünaqişə dövründə bərpa və quruculuq prosesinə öz töhfəsini verə bilər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb. Azərbaycanın Suriyaya yanaşmasında yeni strategiya təkcə iki ölkə arasında münasibətləri deyil, həm də regional güc balansında əhəmiyyətli rol oynaya bilər. Bakı-Dəməşq əlaqələrinin inkişafı Azərbaycana Orta Şərqdə daha güclü siyasi mövqe qazandıracaq. Azərbaycanın bu siyasəti iki ölkə ilə yanaşı, bütövlükdə Cənubi Qafqaz və Orta Şərq regionlarının sabitliyi üçün yeni imkanlar açacaqdır. Göründüyü kimi, Azərbaycan və Suriya arasında münasibətlərin yeni mərhələyə qədəm qoyub.

***Zümrüd BAYRAMOVA***

# Trampın yeni tarifləri Avropanı silkələdi!

## NATO-nun baş katibi ABŞ-a uçdu

***NATO-nun baş katibi Donald Trampı Vaşinqtonda ziyarət edib. Görüş iyulun 14-də keçirilib. NATO-nun mətbuat xidməti xəbər verir ki, NATO-nun baş katibi Mark Ruttenin gələn həftənin əvvəlində ABŞ-a səfər edəcəyi əvvəlcədən planlaşdırılmamışdı. Amma vəziyyət elə gətirdi ki, Baş katib Ağ evə tələcməli oldu. Ruttenin ABŞ prezidenti Donald Trampdan başqa, dövlət katibi Marko Rubio, ABŞ-ın müdafiə naziri Pit Heqset və Konqres üzvləri ilə görüşləri gözlənilir.***

Xatırladaq ki, Rutte bu yaxınlarda bəyan etmişdi ki, Rusiya görünməmiş sürətlə yeni müharibəyə hazırlaşır və Avropanı ələ keçirmək cəhdi əsas məqsədə - ABŞ-a hücuma gedən yolda yalnız aralıq mərhələ ola bilər.



### Almaniya və İtaliya Trampın bəyanatına reaksiya verib

Aİ məsələni danışıqlar yolu ilə həll etmək imkanı olduğu halda ABŞ-a qarşı əks tədbirləri tətbiq etməyəcəyini bildirib. Almaniya kansleri Fridrix Merz bildirib ki, ABŞ prezidenti Donald Tramp 30%-lik rüsum tətbiq etsə, bu, Almaniya iqtisadiyyatına "dağıdıcı zərbə" olacaq. Bu barədə Bloomberg məlumat yayıb. Aİ problemi danışıqlar yolu ilə həll etmək imkanı olduğu müddətcə ABŞ-a qarşı əks tədbirlərini tətbiq etməyəcəyini bildirib. Merzin sözlərinə görə, tariflər avqustun 1-dən qüvvəyə minərsə, Almaniya hökuməti bəzi iqtisadi tədbirlərini təxirə salmaq məcburiyyətində qala bilər. "Bu, hər şeyə kölgə salacaq və Almaniyanın ixrac sənayesinə sarsıdıcı zərbə olacaq", - o qeyd edib. Merz əlavə edib ki, o, belə miqyaslı tariflərin tətbiqinin qarşısını almaq üçün Aİ-nin digər liderləri ilə sıx əməkdaşlıq edir. "Bunun üçün iki şey lazımdır: Avropa İttifaqında birlik və Amerika prezidenti ilə yaxşı ünsiyyət", - kansler bildirib.





Almaniyanın ABŞ-a qarşı Avropanın əks tədbirlərinə dəstək olub-olmaması ilə bağlı suala Merz belə cavab verib: "Bəli, amma avqustun 1-dən əvvəl deyil". O qeyd edib ki, həftə sonu Fransa prezidenti Emmanuel Makron və Avropa Komissiyasının sədri Ursula von der Leyen ilə məsələni intensiv müzakirə edib və cümə günü Trampla telefonla da danışıb. "Biz bu vaxtdan, avqusta qədər olan bu iki həftə yarımdan bir həll tapmaq üçün istifadə etmək istəyirik. Mən buna həqiqətən sadiqəm" dedi Merz.

İtaliya da Trampın tarifləri ilə bağlı açıqlamasına cavab verib. İtaliyanın xarici işlər naziri Antonio Tajani qeyd edib ki, ABŞ-la ticarət danışıqları uğursuz olarsa və Trampın 30%-lik tarifləri qüvvəyə minərsə, Aİ ABŞ-ın 21 milyard avro dəyərində idxal etdiyi mallara rüsum tətbiq edəcək. O, bu barədə "Il Messagero" nəşrinə müsahibəsində bildirib.

Tajanidən AB-nin Donald Trampın Aİ-dən idxala 30%-lik rüsumları elan etdiyi avqustun 1-dək ABŞ ilə qarşılıqlı məqbul ticarət şərtləri barədə razılığa gələ bilməməsi halında nə gözləyəcəyi soruşulub. "Avropa tariflərinin 21 milyard avroluq siyahısı artıq hazırdır və onun ardınca başqa bir tarif də ola bilər. Amma əminəm ki, irəliləyiş olacaq. Tariflər hamıya ziyan vurur. Fond bazarı düşərsə, Amerikanın əmanətləri və pensiyaları risk altında olacaq", - İtaliyanın xarici işlər naziri bildirib. Onun sözlərinə görə, o, Avropa Komissiyasının razılığa ümid tükənməmiş əks tədbirləri elan etməyə tələsməmək üçün seçdiyi yanaşmanı tamamilə bölüşür. "Biz başımızı dik tutaraq danışıqlar aparmalıyıq, ticarət müharibəsindən yayınmağın hər kəsin xeyrinə olduğunu başa düşməliyik. Avropanın ABŞ-a ehtiyacı var və əksinə... Bizim uzunmüddətli hədəfimiz sıfır tariflər və Kanada, ABŞ, Meksika və Avropa arasında açıq bazardır", - Tajani deyib.

O, hesab edir ki, Aİ-nin Vaşinqtonla İngiltərənin etdiyi kimi, nəticədə razılığa gəlmək şansı var - əvvəlcə prinsipial razılaşma əldə olunacaq, ondan sonra detallar üzrə texniki danışıqlar başlayacaq. Tajani əlavə edib ki, Roma İtaliya iqtisadiyyatı üçün ən kritik sektorların - avtomobil, əczaçılıq, şərabçılıq və bütün kənd təsərrüfatı bizneslərini qorumaq üçün səy göstərəcək. "Biz Aİ-nin hər hansı əks tədbirinin bu sektorlara zərər verməməsini tələb edəcəyik" deyib.

Xatırladaq ki, iyulun 12-də ABŞ prezidenti Donald Tramp avqustun 1-dən Aİ ölkələrindən və Meksikadan idxala 30% rüsum tətbiq ediləcəyini açıqlamışdı. Xəbər verdiyimiz kimi, Fransa prezidenti Emmanuel Makron ABŞ prezidenti Donald Trampın Avropa İttifaqına 30% rüsum tətbiq etmək qərarını tənqid edib.

### Aİ Trampa cavab hazırlayır

Avropalı diplomatlar cavab tədbirlərini müzakirə etmək üçün bazar günü fövqəladə toplantı keçirəcəklər. Avropa liderləri və sənaye nümayəndələri ABŞ prezidenti Donald Trampın avqustun 1-dən etibarən Aİ idxalına tarifləri 30%-ə qaldırmaq barədə açıqlamasına kəskin reaksiya veriblər. Bu barədə bazar günü, iyulun 13-də AP məlumat yayıb. Nəşrin məlumatına görə, bu qərar Avropa paytaxtlarında hiddətə səbəb olub. Aİ diplomatları Brüsselin cavabını müzakirə etmək üçün bazar günü təcili iclas keçirməyi planlaşdırır.

Avropa Parlamentinin Ticarət Komitəsinin rəhbəri Bernd Lange Vaşinqtonun qərarını "üzünə sillə" adlandırıb. O əlavə edib ki, əks tədbirlər bazar ertəsi qüvvəyə minməlidir. Fransa prezidenti Emmanuel Makron Avropa Komissiyasını avqustun 1-nə kimi razılıq əldə olunmayacağı təqdirdə "Aİ-nin maraqlarını qətiyyətlə müdafiə etməyə" çağırıb. İspaniyanın Baş naziri Pedro Sançez vahid bazarın gücünü vurğulayıb. Eyni zamanda İtaliyanın baş naziri Giorgia Meloni eskalasiyanın qarşısının alınacağına ümid etdiyini bildirib. Həmçinin Macarıstan Brüsselin mövqeyini tənqid edərək, hesab edir ki, Trampın qayıdışından sonra tariflər aşağı salınmalı idi.

Öz növbəsində Avropa sənayesinin nümayəndələri ABŞ-ın qərarının ciddi nəticələri barədə xəbərdarlıq ediblər. Alman Sənaye Federasiyası (BDI) Trampın bəyanatını "oyanış çağırışı" adlandırıb və vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq üçün dərhal həll edilməsini istəyib. Rəsmi məlumatlara görə, Almaniyanın ABŞ-a ixracı artıq 2022-ci ilin martından bəri ən aşağı səviyyəyə düşüb. Xəbər verdiyimiz kimi, Tramp şənbə günü sosial şəbəkədə iki məktub yerləşdirərək, avqustun 1-dən etibarən Avropa Birliyi və Meksikadan malların idxalına 30% rüsum tətbiq edəcəyi ilə hədələyib. Daha əvvəl Trampın Kanadaya 25% rüsum tətbiq etdiyi bildirilirdi.

**V.VƏLİYEV**

# 1970-1985-ci illər:
## dövlət suverenliyi və iqtisadi müstəqilliyimizin təməli

***Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət Heydər Əliyevin 14 iyul 1969-cu ildən başlanan siyasi yolda uğurlu və məntiqli addımları ilə bütün bunlara nail olmuşuq. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.***



### 14 iyul 1969-cu il: Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.





1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.



1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı.

*Ardı Səh. 5*



# Ehsan süfrəsi, yoxsa ziyafət?

Elçin Bayramlı

Azərbaycanda sosial-mənəvi deqradasiyanın əsas elementlərindən biri də xeyir-şər məclislərinin təşkilidir. Toylarla bağlı cızığından çıxmış vəziyyət məlumdur və biz də bu haqda çox yazmışıq. Bu dəfə isə yas məclislərindən danışacağıq.

Çox təəssüf ki, bu gün yas məclisləri ilə bağlı vəziyyət acınacaqlıdır, hətta bir biabırçılığa çevrilib. Bu biabırçılığa qarşı ölkədə ilk mübarizə aparanlardan biri də mən olmuşam- artıq 25 ildən çoxdur ki, mətbuatda, televiziyada, müxtəlif tədbir və layihələrdə bu mövzu ilə bağlı çıxışlar edir, təkliflər irəli sürürük, cəmiyyəti bu biabırçılığa son qoymağa çağırırıq, lakin hələ ki bir-iki hal istisna olmaqla bu barədə dəyişiklik yoxdur.

Bu cür ifratçı və israfçı yas mərasimləri nə dini, nə də sosial baxımdan doğru deyil. Bu mərasimlərə "ehsan" adı qoyulur, amma ortada ehsan yoxdur. Ehsan adından da məlum olduğu kimi pulsuz, təmənnasız şəkildə edilən, səmimi niyyətlə təqdim olunan bir xeyir işdir. Bu gün isə yas mərasimləri restoran xidmətinə çevrilib: insanlara yeməkiçmək verilir, daha sonra isə pul yazılır, vəsait toplanır. Bu, ehsan anlayışına tamamilə ziddir.

Nə İslam dinində, nə də başqa ölkələrdə bu cür adətə rast gəlinmir. Bir insanın doğması rəhmətə gedəndə insanlar onun dərdinə şərik olmağa, təskinlik verməyə gəlməlidirlər- yemək yeməyə yox.

Amma bu gün ehsan süfrələrində o qədər zəngin təamlar təqdim olunur ki, bu artıq yas deyil, ziyafət məclisini xatırladır. Bu isə yas sahibinin həm maddi, həm də mənəvi cəhətdən ağır vəziyyətə düşməsi deməkdir: böyük xərclər, yorucu hazırlıq, bəzən hətta borc və sələmə düşmək.

Bu hal sadəcə yas sahibinə deyil, cəmiyyətin özünə də zərər verir. Biz yas məclisinə qarnımızı doyurmağa yox, ev sahibinin dərdinə şərik olmağa getməliyik.

Əgər doğrudan da ehsan vermək niyyəti varsa, bu, tamamilə pulsuz olmalıdır. Kimsə deyə bilər ki, bəs kasıb insanlar ehsanın xərcini hardan alsın. Buna o qədər də xərc lazım deyil. Məsələn, yalnız çay və su ilə sadə bir çay süfrəsi təşkil edilə bilər. Çay ehsanı verməyin xərci 100 manat civarında olur, ən çox hallarda 200 manata başa gələ bilər. Hətta ailə ifrat yoxsul olarsa və 100 manatı da olmazsa, qohumlar qonşular, bələdiyyə bu ehsanı verə bilər.

Bu məsələnin inzibati yollarla tənzimlənməsi mümkün deyil. Çünki bu, mənəvi məsələdir və qanunla tənzimlənməsi çətindir. Burada əsas rol cəmiyyətin ziyalılarına, ağsaqqallarına, məmurlarına, tanınmış şəxslərə və din xadimlərinə düşür. Əgər bu şəxslər sadə yas məclisləri təşkil etsələr, pul yığmasalar, xalq da onlardan örnək götürər.Əks təqdirdə, bu yanlış adət daha da genişlənəcək və nəticədə mənəvi deqradasiya dərinləşəcək.

Bəzi rayon və kəndlərdə bu məsələ ilə bağlı müsbət nümunələr də olub. Məsələn, 2000-ci illərin əvvəllərində Tovuz televiziyasında çalışarkən belə bir layihə həyata keçirdik. Rayonun ağsaqqallarını, ziyalılarını, axundunu, din xadimlərini bir araya gətirib televiziyada təbliğat apardıq. Bir neçə ay ərzində yas mərasimləri sadə formada, yalnız çay, halva verilərək keçirildi. Təəssüf ki, bu təşəbbüs davamlı olmadı, çünki sonradan bəzi imkanlı şəxslər bu qaydanı poxdu və digərləri də onlara baxıb əməl etmədilər.

Buradabir şərt də qoyulmuşdu ki, yemək verilən məclislərə axundlar və mollalar getməsin. Bu, bəzi insanların məcburən qaydalara riayət etməsinə səbəb olmuşdu. İndi də eyni yanaşma tətbiq oluna bilər: dinə zidd olan mərasimlərə din xadimləri qatılmamalıdır.

Bir daha qeyd edirəm ki, yas məclisində yemək vermək nə dini baxımdan doğrudur, nə də insanlığa yaraşır. Belə zəngin ehsan vermək əslində deməkdir ki, mən dini, mənəviyyatı və Qurani-Kərimi qəbul etmirəm. Belə yanaşma sosial və mənəvi problemlərin əsas səbəblərindən biridir.

Yas məclisi nə ziyafət, nə də nümayiş yeridir. Sadəlik və səmimiyyət əsas olmalıdır. Cəmiyyətin sağlam təbəqələri- ziyalılar, din adamları, mədəniyyət xadimləri bu sahədə təşəbbüs göstərsələr, cəmiyyət də onlara baxıb doğru yolu seçəcək. Əks halda, bu mənəvi fəlakət daha da dərinləşəcək.

Digər bir məsələ isə qəbir daşları ilə bağlıdır. Bu sahədə də standartların müəyyən olunmasına ehtiyac var. Başdaşları sadə, kiçik və fərqləndirici olmayan formada olmalıdır. Kimin pulu çoxdur, nəhəng heykəl qoyur; kimin imkanı yoxdur, başdaşı belə tapa bilmir. Bu, cəmiyyətdə ölən də belə ayrı-seçkiliyin yaranması deməkdir. Bu isə ağır sosial yük və mənəvi deqradasiyadır. Qəbir daşlarının forması və ölçüsü məsələsi isə qanunla tənzimlənə bilər.

Nəticə olaraq, yas məclislərində təmtəraq yox, təvazökarlıq, israf yox, səmimiyyət olmalıdır. Əgər biz bu sahədə dəyişiklik istəyiriksə, əvvəlcə özümüz nümunə olmalıyıq.

Əvvəli Səh. 4

# 1970-1985-ci illər:
## dövlət suverenliyi və iqtisadi müstəqilliyimizin təməli





1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üççildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına getgedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

### Azərbaycanda Yeni Azərbaycan

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir.

Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

### Ümummilli Liderin müəyyən etdiyi strategiya ilə

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 22 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 22 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

Bəli, ordu quruculuğunu xüsusilə vurğulamalıyıq. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti onları tərk etmirdi. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

### Reallaşan arzular

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir.

1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm.

Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir.

*Mətanət Məmmədova*

# Sosial xidmətlərdə keyfiyyətcə yeni mərhələ: ”DOST” mərkəzləri

## Prezident İlham Əliyev: "İnnovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir"




***Azərbaycanda uğurlu sosial siyasət insanların rifah halının yaxşılaşmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına zəmin yaradıb. Dövlət başçısının göstəriş və tapşırıqları ilə reallaşan islahatlar bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlar insanların xoşbəxt gələcəyinin təminatına yönəldilib. Azərbaycan vətəndaşlarında məmnunluq yaradan DOST mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində ”ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevrilib.***

Bu, ölkəmizin dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulub. Ölkə başçısının ”Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Bu gün vətəndaşlar mərkəzin məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin, sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji və s. sahələr üzrə xidmətlərindən rahatlıqla yararlanır və bundan razı qalırlar.

Mərkəz vətəndaşların bütün xidmətlərdən ”bir pəncərə”yə müraciət etməsinə və ”bir pəncərə”dən faydalanmasına imkan verir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub: ”Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur”.

### DOST XİDMƏTLƏRİNDƏN VƏTƏNDAŞ MƏMNUNLUĞU 98,5 FAİZDİR

Bu ilin birinci yarımilində DOST mərkəzlərində 436 min vətəndaşa xidmət göstərilib. 2019-cu ilin may ayından ötən dövrdə ölkəmizdə artıq 7 DOST mərkəzi, Zəngilanın Ağalı kəndində ”Smart DOST” xidmət məntəqəsi, Qarabağ Regional DOST Mərkəzinin Şuşada filialı açılıb.Beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri ”bir pəncərə”dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir. DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,5 faizdir. İnsanların rifah halının yaxşılaşdırılmasına xidmət edən və onların məmnunluğunu təmin edən DOST Agentliyi və ”DOST” mərkəzi məmur özbaşınalığının, korrupsiyanın qarşısını almaqla yanaşı, vətəndaşların vaxta qənaət etmələri baxımından da təqdirələayiqdir.




### 161 XİDMƏTİN ƏHALİYƏ VAHİD PLATFORMADAN TƏQDİMİ

Xatırladaq ki, 2019-cu ilin mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyi və ilk DOST mərkəzinin açılışı olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə 161 xidmətin əhaliyə vahid platformadan, ”bir pəncərə”dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan verib.DOST infrastrukturunun ölkə boyu genişləndirilməsi işləri davam edir. Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri infrastrukturunun qurulması üçün işlər aparılır.Azərbaycanın yeni brendi olan DOST modeli beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir və ötən dövrdə 60-dan çox beynəlxalq mükafat, o cümlədən 10-dan çox ”Avropa üçün yaxşı təcrübə mükafatı”na layiq görülüb.Eyni zamanda, DOST mərkəzləri ”Aİ Biznes Mühiti Hesabatı 2021”-də Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirilib, DOST xidmətləri modeli BMT tərəfindən ”İnnovativ ictimai xidmət həlləri” statusunda tanınıb. DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərən ölkələrin sayı da getdikcə artır.

### ŞƏFFAFLIQ VƏ OPERATİVLİKDƏ VƏTƏNDAŞ MƏMNUNLUĞU

”Könüllü DOST” proqramı isə ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rol oynayır. Proqramda ötən dövrdə 6 mindən çox könüllü iştirak edib. ”Könüllü DOST” proqramına cari ilin 5 ayı ərzində 15 min müraciət olub, 604 şəxs proqrama cəlb olunub.Azərbaycanda könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olan bu proqramın ”Gənc DOST”, ”Gümüşü DOST” (yaşlılar üçün), ”Distant DOST”, ”Korporativ DOST””, ”İnklüziv DOST” kimi altproqramları fəaliyyət göstərir.Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsi, vətəndaşların məlumatlandırılması, e-sistemlərdən istifadə və s. üzrə köməklik göstərir. Onlar dövlət sosial xidmətlərinin ”bir pəncərə”dən vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsi işlərinə öz töhfələrini verirlər.Proqram iştirakçıların vətəndaşlara xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişafı və karyera yolunda ilk uğurlu addımlarına dəstək olur.Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni bir mərhələ açan ”DOST” mərkəzləri qısa bir zamanda şəffaflığı, operativliyi ilə vətəndaş məmnunluğuna səbəb olub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# ABŞ-dan geridönüş?

## Vaşinqton Ukraynanı yenidən silahla təmin edir

***İyulun əvvəlində prezident Zelenski ilə telefon danışığından, eləcə də bir sıra kütləvi atəşlərdən sonra Tramp Ukraynaya hərbi yardımı artırdığını açıqlayıb. ABŞ prezidenti Donald Trampın administrasiyası Ukraynaya müəyyən növ silahların tədarükünü bərpa edib. Bu barədə çərşənbə günü, iyulun 9-da Associated Press məlumat yayıb. Anonimlik şərti ilə danışan iki ABŞ rəsmisi qeyd edib ki, Ukrayna yenidən 155 mm-lik sursat və GMLRS kimi yüksək dəqiqlikli raketlər alır. Prezident Donald Tramp özəl olaraq Pentaqonun Ağ Evin əvvəlcədən razılığı olmadan tədarüklərin dayandırıldığını açıq şəkildə elan etməsindən narazılığını bildirib.***



Eyni zamanda, jurnalistlərin qeyd etdiyi kimi, ABŞ Müdafiə Nazirliyi müdafiə naziri Pit Heqsetin prezidentlə məsləhətləşmədən hərəkət etdiyini inkar edir. Agentlik xatırladıb ki, ümumilikdə, 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya genişmiqyaslı işğalı başlayandan bəri ABŞ Ukraynaya 67 milyard dollardan çox dəyərində hərbi yardım və silah verib. Qeyd edək ki, ABŞ Müdafiə Nazirliyi prezident Donald Trampın göstərişinə əsasən Ukraynaya əlavə müdafiə silah-



larının tədarük edildiyini açıqlamışdı.

Amerika prezidenti hava hücumundan müdafiə sistemlərini "çox nadir" və "çox bahalı" adlandırıb, lakin əmin edib ki, məsələyə baxılır. ABŞ prezidenti Donald Tramp komandası ilə birlikdə Ukraynaya əlavə "Patriot" raketdən müdafiə sistemi ötürmək imkanını "nəzərdən keçirir". O, Ağ Evdə Afrika liderləri ilə görüşdə jurnalistlərlə söhbətində bunu təsdiqləyib. "Ukraynalılar bunu istərdilər, bilirəm ki, xahiş ediblər. Ona görə də biz bu tələbi nəzərə almalıyıq", - deyə Ağ Ev rəhbəri cavab verib. Onun sözlərinə görə, bu hava hücumundan müdafiə sistemləri əslində "çox nadirdir" və "çox bahalıdır". "Prezident olsaydım heç vaxt baş verməyəcək müharibəyə bu qədər pul xərcləməli olmağımız utancvericidir", - Tramp cavabını ənənəvi açıqlama ilə yekunlaşdırıb.

Qeyd edək ki, ABŞ Müdafiə Nazirliyi prezident Donald Trampın sərəncamına uyğun olaraq Ukraynaya əlavə müdafiə silahlarının verildiyini açıqlamışdı. ABŞ prezidenti Ukraynada baş verənlərdən narazıdır və hesab edir ki, bu müharibə heç vaxt başlamamalı idi. ABŞ prezidenti Donald Tramp Rusiyanın Ukraynaya 700-dən çox pilotsuz uçuş aparatından istifadə etdiyi gecə hücumundan narazıdır. Amerika lideri iyulun 9-da brifinq zamanı jurnalistlərə bildirib. Media nümayəndələri Trampdan Rusiyanın Ukraynaya bugünkü zərbəsini şərh etməyi xahiş ediblər. "Çoxları bilir ki, mən Ukraynada baş verənlərdən narazıyam. Bu, heç vaxt baş verməməli olan müharibədir. Hazırda hər iki tərəfdən həftədə 5-7 min insan ölür - gənclər. Çox vaxt bunlar hərbçilərdir. Gənc ruhlar ölür. Buna son qoyulmalıdır. Baş verənlərdən çox üzülürəm", - deyə vurğulayan Donald Tramp Putinin "bədbəxt" olduğunu və ona "kiçik sürpriz" hazırladığını bildirib.

### Pentaqon Patriot planını dörd dəfə artırdı

Ordunun büdcə sənədləri təsdiqləyib ki, 2024-cü maliyyə ilinə qədər 2047 PAC-3 MSE raketi, 2024-cü ildə daha 230, bu il isə 214 raket alınıb. ABŞ ordusu dronları, qanadlı raketləri və ballistik raketləri ələ keçirmək üçün istifadə edilən Patriot raketlərinin alışını əhəmiyyətli dərəcədə artırır. 2026-cı maliyyə ili üçün Konqresə təqdim edilən büdcə sorğusuna əsasən, Ordu 224 raket almaq üçün 1,3 milyard dollardan çox vəsait istəyir və ümumi hədəfi 13 773 raket təşkil edir ki, bu da əvvəllər planlaşdırılandan dörd dəfə çoxdur, Bloomberg çərşənbə günü, iyulun 9-da bildirib.

Qərar aprelin 16-da yüksək rütbəli hərbçilərdən ibarət xüsusi komissiya tərəfindən qəbul edilib. Onun tövsiyələri avtomatik büdcə qüvvəsinə malik olmasa da, Patriot



sistemi üçün strateji prioritetdən xəbər verir. Lockheed Martin şirkətinin istehsalı olan PAC-3 MSE raketləri dronları, orta mənzilli raketləri və taktiki ballistik raketləri ələ keçirməyə qadirdir. Raket üçün bərk raket mühərriki L3Harris Technologies şirkəti tərəfindən təchiz edilir. Ukrayna şəhərləri Rusiya atəşindən qorumaq üçün "Patriot"dan da fəal istifadə edir.

Prezident Donald Tramp təsdiq edib ki, Kiyevə müdafiə silahlarının tədarükü, administrasiyasının onları müvəqqəti olaraq dayandırmaq qərarına baxmayaraq, davam edəcək. 2026-cı ildə 945,9 milyon dollara 224 raketin alınması planlaşdırılır ki, bunun da 396,3 milyon dolları NATO-nun Avropada müdafiəsini gücləndirmək təşəbbüsü olan Atlantik Qətiyyət əməliyyatını dəstəkləmək üçün ayrılacaq. Bundan əlavə, Trampın bu yaxınlarda imzaladığı vergi qanunu 96 əlavə mühafizəçi üçün daha 366 milyon dollar nəzərdə tutur.

Patriot sistemləri Yaxın Şərqdə, xüsusən də İsraili dəstəkləmək və Qətərdəki Əl Udeid hava bazasını qorumaq üçün fəal şəkildə istifadə olunur. Analitiklər yığılmanı çoxdan gözlənilən addım kimi qiymətləndiririlər. Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin Raketdən Müdafiə Layihəsinin direktoru Tom Karako, "İllər ərzində sursat və ələ keçirən qurğuların çatışmazlığı diaqnozundan sonra, nəhayət, bir reseptimiz var - və Patriot tutucunu dörd dəfə artırmaq mükəmməl məna kəsb edir", deyib. Pentaqonun sözçüsü Steve Warren Ordunun illərdir



davamlı olaraq istehsalı maliyyələşdirdiyini, lakin "istehsalın artırılmasının çətin olduğunu" söyləyib. Belə ki, hələlik istehsalın genişləndirilməsi problem olaraq qalır.

Lockheed Martin mart ayında bildirib ki, onun komandası 2024-cü ildə istehsalı 30% artıraraq 500 PAC-3 raketi istehsal edib və 2025-ci ildə istehsalı daha 20% artırmağı planlaşdırır. Xatırladaq ki, Tramp administrasiyası Ukraynaya əlavə "Patriot" hava hücumundan müdafiə sistemləri göndərməyi düşünür.

### Kelloq: Ukraynada atəşkəs indi mümkündür

Romada Rusiyanın təcavüzünə qarşı mübarizə və Ukraynanın gələcəyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Donald Trampın nümayəndəsi, general Keyt Kelloq Romada Ukraynanın gələcəyinə həsr olunmuş beynəlxalq konfransda çıxış edərək qeyd edib ki, hazırda atəşkəs mümkündür. Bu barədə o, çərşənbə günü, iyulun 9-da X sosial şəbəkəsindəki səhifəsində yazıb. "Mülki əhalinin ölümünü dərhal dayandırmaq lazımdır", - o yazıb. Kelloq qeyd edib ki, Birləşmiş Ştatlar Ukraynaya öz vətəndaşlarını qorumaq və mülki əhali arasında itkilərin qarşısını almaqda kömək etməkdə davam edir.

O, Vaşinqtonun diqqət çəkdiyi misli görünməmiş hücumu da xatırladıb. "Rusiya diktatoru bir gecədə Ukraynaya 740-dan çox pilotsuz təyyarə və raket zərbəsi endirdi - bu, bütün genişmiqyaslı işğal dövrü üçün rekord rəqəmdir", - Kelloq qeyd edib. Prezident Vladimir Zelenski Ukraynanın Bərpası Konfransı çərçivəsində Kelloq ilə mənalı söhbət etdiyini bildirib. Tərəflər silah təchizatı və hava hücumundan müdafiə sisteminin gücləndirilməsini müzakirə ediblər.

### Britaniya və Fransa raket ehtiyatlarını artıracaq

Müqavilə Britaniya və Fransanı Fırtına Kölgəsinin dəyişdirilməsi üçün son dizaynın seçimini yaxınlaşdıracaq birgə raket layihəsinin növbəti mərhələsinə başlamağı öhdəsinə götürür. London və Paris arasında iyulun 10-da Böyük Britaniyanın baş naziri Key



Starmer və Fransa prezidenti Emmanuel Makron tərəfindən imzalanacaq yenilənmiş saziş çərçivəsində uzaqmənzilli "Storm Shadow" qanadlı raketlərinin ehtiyatı artırılacaq, Starmerin ofisindən bildirilib.

Qeyd olunur ki, yeni saziş Böyük Britaniya və Fransanı uzun mənzilli və gəmi əleyhinə raketlər üzrə birgə layihənin növbəti mərhələsinə başlamaq öhdəliyini götürür ki, bu da "Storm Shadow"un dəyişdirilməsi üçün yekun dizaynın seçimini yaxınlaşdıracaq. Gözlənilir ki, Storm Shadow-un arsenalları doldurmaq üçün sifarişin artırılması, istehsal xətlərinin modernləşdirilməsi ilə yanaşı, yüksək ixtisaslı iş yerlərinin qorunmasına və yenilərinin yaradılmasına kömək edəcək.

Razılaşma həmçinin RAF qırıcıları üçün vizual məsafədən kənarda fəaliyyət göstərən yeni nəsil hava-hava raketlərinin birgə işlənməsini nəzərdə tutur. Daha əvvəl BMF-TV Yelisey Sarayına istinadən məlumat vermişdi ki, Makron və Starmer bu gün nüvə qarşısının alınması qüvvələrinin hərəkətlərinin əlaqələndirilməsi haqqında bəyannamə imzalayacaqlar.

Telekanalın məlumatına görə, saziş "ifrat təhlükələr" zamanı Avropa ölkələrini qorumaq üçün birgə fəaliyyətə yönəldiləcək. Lakin Paris və Londonun belə bir vəziyyət-



də hansı addımları atmağa hazır olacağı açıqlanmır. Sənəddə həmçinin vurğulanacaq ki, Fransa və Böyük Britaniyanın nüvə qarşısının alınması qüvvələri "müstəqil qalır, lakin onların hərəkətləri əlaqələndirilə bilər". Bundan əvvəl KİV-lər məşhur StormShadow/Scalpi Aster-in istehsalçısı olan Avropa raket nəhəngi MBDA-nın Avropanın yenidən silahlanması və Ukraynaya tədarükünü sürətləndirmək cəhdində ciddi problemlərlə üzləşdiyini yazmışdı.

**V.VƏLİYEV**

# “Azərbaycanı silahsızlaşdırmaq, qorxutmaq, susdurmaq olmaz”

“Ermənistanın baş naziri Nikol Paşinyan əvvəlcə ölkəsində sabitlik yaratmalı, daxili qarşıdurmalara son qoymalıdır. Hazırda Zəngəzur dəhlizi ilə bağlı yanlış məlumatlar yayılır. Guya bu dəhliz Azərbaycan və Türkiyənin Qərblə razılaşdırılmış planıdır. Halbuki bu dəhliz 10 noyabr 2020-ci il bəyanatının 9-cu bəndində yer alıb və Rusiyanın iştirakı ilə təsdiqlənib. Bu layihə sırf geoiqtisadi xarakter daşıyır və həm Azərbaycanın Naxçıvanla bağlantısını təmin edəcək, həm də region dövlətləri, o cümlədən Çin, Hindistan və türk dövlətləri üçün faydalı olacaq”. Bu sözləri





SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Onun sözlərinə görə, Ermənistan isə bu layihəyə siyasi çalar verməyə çalışır və eyni zamanda həm Qərbdən, həm də Rusiyadan silah alır. Bu isə sülhə deyil, revanşist niyyətlərə işarədir. Fransa və Avropa İttifaqının bölgədəki fəaliyyəti də təxribat potensialı daşıyır. Azərbaycan güclüdür və təxribatlara cavab verməyə hazırdır. Əgər Ermənistan səhv addım atarsa, nəticələri özü üçün ağır olacaq: ”Çin, Hindistan, digər Asiya ölkələri və Mərkəzi Asiya dövlətləri bu dəhlizdə maraqlıdırlar. Ermənistan isə çalışır ki, bu layihəyə siyasi bir qatqı əlavə etsin. Amma biz bilirik ki, bu sırf geoiqtisadi layihədir və bizə ilk növbədə ona görə lazımdır ki, həm ölkəmizin iki hissəsini birləşdirək, həm də tranzit ölkəsi kimi öz xeyrimizi alaq. Digər tərəfdən, Ermənistan daxilində olan qüvvələrin bəziləri Rusiya tərəfdarıdır, bəziləri isə revanş istəyən qüvvələrdir. Rusiyadan gizli şəkildə silah-sursat daşınır. Mən elə başa düşürəm ki, bu proses Nikol Paşinyandan xəbərsiz ola bilməz. Əgər ölkəyə silah-sursat gətirilirsə, özü də bunların çoxu hücum xarakterli silahlardırsa, bu onu göstərir ki, Ermənistanın siyasi rəhbəri özü də revanş ideyasından o qədər də uzaq durmur.

Bəli, Birləşmiş Ərəb Əmirliklərində danışıqlar oldu və münasibətlərdə, eləcə də sülh yolu istiqamətində yeni bir səhifə açılır. Ancaq Ermənistan yenə də subyektliyini saxlamağa çalışan bir tərəf kimi həm Qərbdən, həm də Şərqdən nələrsə almağa çalışır. Bir tərəfdən Avropa İttifaqına inteqrasiya olmaq istəyir, digər tərəfdən Rusiyadan, Hindistandan və Fransadan silah-sursat alır. Əgər sən sülhə hazırlaşırsansa, bu nə xəstəlikdir səndə? Mən elə başa düşürəm ki, bəli, burada Nikol Paşinyanın bu proseslərdən xəbəri var. O, bunun qarşısını almır. Digər tərəfdən çalışır ki, Azərbaycana təzyiqlər göstərsin, guya mən də əliyalın deyiləm. Və nəhayət, Fransa kimi bir ölkə var ki, burada təxribatlara geniş meydan verə bilər. Orada Avropa İttifaqından gəlmiş bir çox lazımsız müşahidəçilər fəaliyyət göstərirlər.

Belə olan halda, mən deyərdim ki, risk və təhlükə mənbəyi mövcuddur. Ona görə düşünürəm ki, burada İrəvan həqiqətən də çoxşaxəli bir oyuna baş qoşur və bu oyunda qeyri-ciddi oyuncuların riskli gedişləri həmişə özlərinə zərər verir. Və elə hesab edirəm ki, burada da biz bunun şahidi olacağıq.

Çünki, birincisi, Azərbaycanı silahsızlaşdırmaq, qorxutmaq, susturmaq olmaz. Biz sözümüzü demişik və deyəcəyik. İkincisi, bizim gücümüz və potensialımız var ki, Ermənistan ordusunu yenidən məğlub edək, onu diz çökdürək. Və elə düşünürəm ki, əgər həqiqətən də belə bir səhv və yanlış gedişə Paşinyan və onun dəstəsi izin verərsə, onlar çox peşman olacaqlar. Mənə elə gəlir ki, Ermənistanın artıq bir dövlət kimi subyektliyi sual altına düşəcək və bu heç də ermənilərin xeyrinə bitməyəcək”.

**_Ziya Hikmətoğlu_**

# Günahkar analardır

***Son dövrlərdə insanlar çəki artımından, yəni kökəlməkdən əziyyət çəkir. Bu, əvvəllər nə üçün belə deyildi? İllər öncə insanlar niyə kütləvi şəkildə kökəlmirdi, lakin indi bu, artıq qlobal problemə çevrilib.***

Bunun müəyyən səbəbləri var. Məsələn, əvvəlki illərdə texnologiya inkişaf etməmişdi, insanlar daha çox özləri çalışırdı. Yəni paltar, qab-qacağı maşınlar deyil, insan özü yuyurdu. Evi tozsoran deyil, insan özü süpürür, silir, təmizləyirdi. Hətta ətçəkən maşın da yox idi. Əti elektrik olmayan maşınlarda insanlar öz gücləri hesabına çəkir, sadaladığım hər bir işdə enerji sərf edirdi və bu da kökəlmənin qarşısını alırdı. İnternet yox idi, hər kəs evdən çox bayırda gün keçirirdi: gəzirdi, təmiz havada olurdu, oyunlar oynayırdı, kitab oxuyurdu.

Avtomobil də indiki qədər yox idi. Bu səbəbdən də insanlar piyada gəzmək kimi əlverişli imkandan istifadə edir, sağlam, həm də çəkisi yerində olurdu.

Bəs uşaqlar? Hansı ki, bu gün elə onların kökəlmə səbəbindən danışacağıq. Uşaqlar dərsdən sonra gün batanadək həyətdə o qədər oynayır, ora-bura qaçırdı ki, canları sağ, çəkiləri də yerində olurdu. Xüsusi rejimlə qurulan həyat onlara sağlamlıq töhfə edirdi. Valideyn indiki kimi onları məktəb çantasından əlavə yemək (bəslənmə) çantası ilə məktəbə göndərmirdi. Vurtut uşağa 10-20 qəpik verərdi ki, bu da bir kökə, bir stəkan da çay edərdi.

Lakin indi necədir? İndi uşaqlar artıq həyət-bacada görünmür. Yeni texnologiyalar onları evə dustaq edib. Kompüter, smartfon telefonlar qarşısında onurğa sütunu əyilən, gözü zəifləyən uşaqlar gün ərzində bir saat belə hərəkət etmir, açıq havada olmurlar.







Səhər məktəbə gedəndə isə kaş ki, anaların onların məktəb çantasının yanına qoşduğu digər çantaya qoyduğu yeməkləri, kökələri görən ola. İş yerim məktəbə yaxındır, işə gəlib gedəndə də məktəbin qarşısından keçirəm. Anaların uşaqlarla söhbətini, onlara tapşırığını eşidirəm: filankəs, bax, çantana kökə bişirib qoymuşam, yanında o istədiyin yeməkdən də var. Meyvəni də yeməyi unutma... Və yaxud da uşağı məktəbdən götürən ananın ”çantana qoyduqlarımı yemisən?”,- soruşmasının, uşağın isə ”yox” deyərkən, ananın ona hirslənib ”mən, bilirsən, saat neçədən qalxıb onları sənin üçün bişirmişəm?” deməklə yemədiyi üçün onu ittiham etdiyini də görmüşəm.

Dəfələrlə ana və uşaqlar arasında bu mövzuda söhbətin, tapşırığın şahidi olmuşam. Və belə bir qənaətə gəlirəm ki, bu gün uşaqların çəki artımının səbəbkarı analardır. O uşaqlar ki, bu çəki ilə də məktəbi bitirir və gənclik çağında artıq həm görünüşündən, həm də sağlamlıq cəhətdən əziyyət çəkir.

Deməli, bütün bunlar üçün analar günahkardır. Uşaqların həm evdən bayıra çıxmamasının, həm çox yeməyinin, həm də rejimdənkənar həyat tərzi keçirməsinin hər biri anaların səhlənkarlığı, uşağını ”çox istəməsi” ilə bağlıdır. Lakin əslində bu, dərkedilməyən istəkdir. Dərk edilən şəkildə olsa, analar anlayar ki, birinci, uşaqların əlindən kompüter və telefon alınmalı, onlar bu kimi vasitələrdən müəyyən saat, dəqiqə ərzində istifadə etməlidir.

Ana anlamalıdır ki, uşaqlar nə qədər ki, evdə çox zaman keçirir, təmiz havaya çıxmır, oyunlar oynamır, bir o qədər sağlamlığını itirir, çəki alırlar. Onlar ən birinci əziyyət çəkib vaxt ayırıb onların küçəyə çıxmasını təmin etməlidir. Necə deyərlər, uşaqlar seriallara qurban verilməməlidir. İkincisi isə uşağa məktəbdə yeməsi üçün bir o qədər yemək qoymaq düzgün deyil. Çünki bu, onun rejimsiz bir həyat yaşamasına, harada, nə vaxt gəldi, yeməsinə səbəb olur. Odur ki, bunlara diqqət edilməli, uşağın sağlamlığı ön plana keçməlidir.

Belə bir nəticəyə gəlirəm ki, bu gün uşaq, yeniyetmə və gənclərin çəki probleminin təməli məktəblərdə qoyulur və bunun üçün günahkar analardır.

Unutmayaq ki, insan çox yeməklə deyil, az yeyib çox vitamin qəbul etməklə, bir də çox hərəkətlə sağlam ola bilər. Bunu əməllibaşlı dərk edək ki, uşaqların gələcək kompleksinə çevriləcək çəki artımına şərait yaratmayaq.

**_Mətanət Məmmədova_**



# Qələbələrin uca zirvəsi

*44 günlük Vətən Müharibəsində əldə olunan parlaq zəfər illər, əsrlər keçsə də, hərb tarixinin qızıl fondu olaraq qalacaq*

Biz bir millət, xalq olaraq qürurlu və sevincli tarixi yaşayırıq. Hansı ki, bu gerçək tarixi prosesdə Azərbaycan bütün sahələrdə möhtəşəm uğurlara, nailiyyətlərə imza atır. Uğurların ən yüksək zirvəsi isə 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibsində 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsidir. Təəssüf ki, hərbi, siyasi, diplomatik qələbələrin əldə olunmasına qədər uzun illər keçdi və bu illər ərzində Ermənistanın təxribatları nəticəsində onlarla insanımız şəhidlik zirvəsinə yüksəldi. Azərbaycanın müstəqilliyinin ilk illərində hakimiyyət boşluğundan istifadə edən Ermənistanın terrorçu toplumu və onların arxasında dayanan böyük güclər ardıcıl olaraq torpaqlarımızı işğal etdilər. Ermənistanın qəsbkar siyasəti nəticəsində 20 faiz torpaqlarımız işğal edildi və 1 milyona yaxın insan evəşiyindən didərgin salındı. 30 ilə yaxın atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən 4 qətnamə qəbul etsə də, Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı, AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə sülh danışıqları da nəticəsiz qaldı. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu.

## ZƏFƏRƏ GEDƏN YOL

Nəhayət gözlənilən qisas günü yetişdi. 2020-ci il sentyabrın 27-də başlayan müharibəsi haqlı olaraq Vətən Savaşı adını aldı. Xalqın Fateh Sərkərdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi nəticəsində 44 gün ərzində Ermənistan ordusu darmadağın edildi. 44 günlük Vətən Müharibəsi ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istekam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 4 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olaraq götürüldü. Bu, böyük qələbəmizdir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Azərbaycan hərb meydanında düşmənə layiq olduğu yerini göstərməklə bərabər bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq münaqişə mövcud deyil, ərazi bütövlüyümüz və suverenliyimiz tam şəkildə bərpa edilib. Qələbənin əsas müəllifi, Fateh Sərkərdə, Prezident İlham Əliyevin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edilib. Qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Fəxr edirik ki, uğurlarımızın təməlində xalq-iqtidar birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi.

## HAQQIMIZ OLAN QƏLƏBƏ



Qələbələrimizin təməli sentyabrın 27-də qoyulsa da, demək olar ki, 8 noyabr 2020-ci il Qarabağımızın incisi Şuşanın azad edilməsi ilə Qarabağa qovuşduğumuz tarixdir. Bu Böyük Qələbə ilə Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA qoyduğu gündür. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməsi ilə nəticələndi. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu fikirlərin davamı olaraq bildirmişdir: "Dedik yetər, artıq bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!"

Haqqımız olan qələbə təntənəli şəkildə qeyd olunmalı idi və oldu da. Noyabrın 10-da dostları sevindirib, düşmənləri xar edən qələbə paradı keçirildi. Bu parad həm də işğal altında olmuş topaqlarımızın 30 il həsrətində olduğu Qələbə paradı oldu. "Azadlıq" meydanında keçirilən Qələbə Paradında 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Parada, həmçinin, Vətən Müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. Qürurverici məqamlardan biri də ondan ibarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyib Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu.

## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ İLƏ TARİX YAZAN AZƏRBAYCAN



"Tarix təkrar olunur"-deyiblər. 100 il bundan əvvəl Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Milli Ordusu ilə birlikdə Bakını erməni daşnaklarından azad etmişdir. Uğurlu hərbi əməliyyatlarla Azərbaycanın bütün bölgələri erməni terrorçularından təmizlənmişdir. Bu gün də, ulularının qardaşlıq dəstəyini əsirgəməyən Türkiyə qardaşlarımız başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla erməni vandallarının Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağdan təmizlənməsində Azərbaycana mənəvi, siyasi dəstəyini əsirgəmədi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən Zəfər paradında çıxışı zamanı bildirdi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq: "İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dastan yazmağa davam edəcək. Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik".

Qələbə Paradında Türkiyə Ordusunun mehmetcikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda Türkiyə qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetçik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlərdə ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Pardında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

Əminliklə demək olar ki, qələbələrimiz və uğurlarımız hələ qabaqdadır. 30 il erməni işğalı altında olmuş torpaqlarımızı Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad etdiyimiz kimi Zəngəzura da daxil olub, Naxçıvanla Azərbaycanın Qərb rayonlarının birləşməsinə nail olacağıq. Bu, bizim haqqımızdır, ədalətin bərpa olunması, elə haqqımızın ədalətli şəkildə təmin olunması deməkdir.

***İLHAM ƏLİYEV***

# Xocalının Xanyurdu və Təzəbinə kəndləri ilk köç karvanlarını qarşıladı

Azərbaycan istər coğrafi relyefi, istər təbiəti, istər tarixi, istər turizmi, istərsə də mədəniyyəti və adət-ənənələri ilə dünya üçün maraqlı, sirli bir ölkə kimi diqqətdə olub. Son illərin ictimai-siyasi hadisələrində də dünyanın nəzəri Azərbaycana yönəlmiş bu ölkədə baş verən proseslər daim izlənilmiş, müxtəlif fikirlər söylənilmişdir. 44 günlük Vətən müharibəsinə qədər Ermənistan tərəfindən Azərbaycana qarşı əsassız ərazi iddiasının irəli sürülməsi və zəbt etdikləri ərazilərdə maddi abidələrə qarşı talançılıq siyasətininin yeridilməsi diqqətdən kənarda qalmamış, bununla bağlı dünya mətbuatında kifayət qədər məqalələr, reportajlar dərc olunmuşdur. Bu və digər amillər, əlbəttə ki, beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir. Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə təbii ehtiyatların talanması, Qafqaz Albaniyasına məxsus abidələrin və digər milli abidələrimizin məhv edilməsi ətrafında məqalələrin qələmə alınması, deməyə əsas verir ki, dünya, beynəlxalq ictimaiyyəti Azərbaycana qarşı laqeyd münasibətdə olmayıb. Azərbaycanda olan əlverişli təbii şərait, onun sıx meşələri erməni təcavüzkarları tərəfindən talan edilmiş, ekoloji fəlakət yaşanılmışdır. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması ”Arxeoloji irsin mühafizəsi haqqında” Avropa Konvensiyasına, ”Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun konvensiyasına ziddir.







Bu gün Azərbaycan öz torpaqlarını işğaldan azad edib. 44 günlük Vətən müharibəsində Zəfər qazanan Azərbaycan artıq öz torpaqlarına sahibdir. Dünya ölkələrindən gələn nümayəndələr erməni xisləti, barbarlığı ilə yaxından tanış olur və real vəziyyət onların acı təəssüratlarını qələmə almağa, fikirlərini dünya ictmaiyyətinə çatdırmağa vadar edir. Bildiyimiz kimi, dünya ölkələrində olan KİV-lər müharibə dövründə hadisələrin gedişi ilə yaxından tanış oldudar və erməni təcavüzkarlığı ilə bağlı gördükləri bu vəhşiliklərlə bağlı olan düşüncələrini daha da dərinləşdirdi. Bərdə, Gəncə kimi şəhərlərə dinc əhaliyə qarşı vandallıqları hər kəsi hiddətləndirdi. Bu gün Qalib bir dövlətin işğaldan azad olunan torpaqlarına səfər edərək mövcud vəziyyətlə, dağıdılmış və viran qoyulmuş ərazilərimizlə yaxından tanış olurlar.



Əlbəttə ki. bu gün Böyük qələbədən sonra işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Böyük Qayıdış və görülən işlər, icra olunan layihələr də dünyaya Azərbaycanın iqtisadi gücünü, potensialını və həmrəyliyini bir daha nümayiş etdirir. Bu gün Qarabağ və Şərqi Zəngəzurumuzda azad nəfəs alır və qurub yaradırıq. İşğaldan azad olunan ərazilərimizdə yeni səhifələr açılıb, yeni işıqlı səhərlər yaşayırıq.

## XOCALI RAYONUNUN XANYURDU KƏNDİNƏ 122 NƏFƏR, TƏZƏBİNƏ KƏNDİNƏ İSƏ 125 NƏFƏR KÖÇÜRÜLDÜ

Daha bir köç karanının sevincini yaşadıq. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Xocalı rayonunun Xanyurdu və Təzəbinə kəndlərinə ilk köç karvanı yola salınıb. Köçürülənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

İlk mərhələdə Xocalı rayonunun Xanyurdu kəndinə 33 ailə - 122 nəfər, Təzəbinə kəndinə isə 28 ailə - 125 nəfər köçürülüb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Xanyurdu və Təzəbinə kənd sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

## ”HƏM VƏTƏN MÜHARİBƏSİ, HƏM ANTİTERROR ƏMƏLİYYATI XALQIMIZIN GÜCÜNÜ, İRADƏSİNİ, ƏSGƏR VƏ ZABİTLƏRİMİZİN QƏHRƏMANLIĞINI BÜTÜN DÜNYAYA SÜBUT ETDİ”

İşğaldan azad olunuan digir ərazilərimiz kimi bir gecənin içində ermənilər tərəfindən məhv edilən və 32 ildən sonra əzəli sakinlərin qoynuna alan Xocalı şəhərində də böyük canlanma müşahidə olunmaqdadır. Bir gecənin içində məhv olan, sakinləri dərbədər düşən, qocası, uşağı zillətlə məhv edilən bir torpağa qayıtmışıq. Bəşəriyyət tarixinin insanlıq əleyhinə yönəlmiş ən dəhşətli cinayətlərdən biri olan, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi etnik zəmində soyqırımı siyasətini sübut edən Xocalı soyqırımı tarixdəən silinməyəcək. 1992-ci ilin 26 fevral tarixində erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir. Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Xocalı bir gecənin içərisində yerlə-yeksan olundu. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı soyqırımının nəticələri çox dəhşətli idi. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi.

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata uyğun olaraq Xocalı şəhəri Rusiya Sülhməramlı kontingentinin nəzarəti altında olub. 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. ”Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!” - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirib.

## ”BİRİNCİ NÖVBƏDƏ BİZ XOCALINI BƏRPA ETMƏLİYİK”

”Antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik”, - deyə Prezidentimiz bildirmişdir. Birinci mərhələdə 20 ailə Xocalıya qayıtdı. Bu qayıdış Müstəqillik Günündə baş tutdu. Artıq Xocalının gələcək inkişafı ilə bağlı Baş planı da hazırlanıb. Baş Plana əsasən, ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırılır. Eyni zamanda, ehtiyat üçün də ərazilər saxlanılır.

Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılır. Ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər inşa olunacaqdır.

Bu gün Xocalı yenidən qurulur. Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Xocalının Baş planını hazırlayarkən ilk növbədə, onun regiondakı mövqeyi də nəzərə alınıb. Bura strateji mövqeyə malikdir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu və s. bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.



Artıq Xocalıda ədalətin təntənəsi yaşanılır, yeni bir dövr başlanıb. Artıq Böyük Qayıdış proqramının Xocalı səhifəsinə yeni tarixi həqiqətlər həkk olunur.

***Zümrüd BAYRAMOVA***

# "Hazırda dünyada yeni geosiyasi nizam formalaşmaqdadır"

**"Son illərdə Azərbaycanın beynəlxalq təbii qaz təchizatında rolu nəzərəçarpacaq dərəcədə artmaqdadır. Xüsusilə Avropa İttifaqı ölkələri ilə sıx enerji əməkdaşlığı və artan tələbat bu prosesə güclü təkan verir. Avropada enerji təhlükəsizliyinin təmin olunması məsələsində Azərbaycan strateji tərəfdaş kimi qəbul edilir. Bu isə Azərbaycanın qaz ixracatında həm coğrafi, həm də siyasi əhəmiyyətini artırır". Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib.**

Akif Nağı sözlərinə belə davam edib: "Hazırda dünyada yeni geosiyasi nizam formalaşmaqdadır. Bu kontekstdə Yaxın Şərqdə, xüsusilə də Suriya ilə bağlı baş verən proseslər diqqət mərkəzindədir. Suriyanın beynəlxalq münasibətlər sisteminə yeni formatda və yeni siyasi statusla geri dönməsi aktual və təxirəsalınmaz məsələlərdən biri kimi qiymətləndirilir. Bu istiqamətdə bir sıra qlobal və regional güclər arasında fikir ayrılıqları və siyasi mübarizə müşahidə olunur.

Türkiyənin Suriyada artan rolu da bu kontekstdə xüsusi vurğulanmalıdır. Məlumdur ki, ABŞ da daxil olmaqla beynəlxalq aktorlar Suriyanın yenidən qurulması və sabitləşdirilməsi məsələsində Türkiyənin vasitəçilik missiyasına və diplomatik səylərinə etimad göstərirlər. Rusiya isə bölgədəki hərbi mövcudluğunu tədricən azaldaraq yeni siyasi konfiqurasiyanın formalaşmasına şərait yaradır.

Bu yeni nizam çərçivəsində təbii qaz məsələsi də əsas müzakirə mövzularından biridir. Bu resursa sahib olan və onu nəql etmə imkanına malik ölkələrin rolu əhəmiyyətli dərəcədə artır. Azərbaycanın da bu baxımdan üstün mövqeyə malik olduğu nəzərə alınmalıdır. Qaz təchizatının Suriya üzərindən digər Yaxın Şərq və Avropa ölkələrinə çatdırılması imkanları araşdırılır. Bütün bu proseslər fonunda Azərbaycanın həm enerji, həm də geosiyasi gücü artmaqda davam edir. Gələcəkdə Suriya, Misir və Almaniya kimi müxtəlif ölkələr istiqamətində yeni nəql marşrutları və enerji əməkdaşlığı layihələri gündəmə gələ bilər. Bu isə Azərbaycanın regional və qlobal enerji xəritəsində mövqeyini daha da möhkəmləndirəcək.



Enerji resurslarının beynəlxalq münasibətlərdə təzyiq aləti kimi istifadə olunduğu müasir geosiyasi reallıqlar fonunda, Azərbaycan üçün enerji ixracatının şaxələndirilməsi strateji əhəmiyyət kəsb edir. Bu baxımdan, Yaxın Şərq istiqamətindən istifadə olunması və bu bölgəyə çıxış imkanlarının genişləndirilməsi Azərbaycanın enerji təhlükəsizliyi və milli maraqları baxımından olduqca vacib məsələdir.

Hazırkı dövrə qədər Azərbaycanın əsas diqqəti Avropa bazarlarına yönəlsə də, Yaxın Şərq istiqamətində mümkün ixrac marşrutları ölkənin strateji mövqeyini gücləndirir. Bu, həm Azərbaycanın tranzit potensialını artırır, həm də enerji siyasətində daha balanslı və təzyiqlərə davamlı mövqe formalaşdırmağa imkan verir. Məlum olduğu kimi, enerji məsələləri bəzən dövlətlər arasında siyasi təzyiq vasitəsinə çevrilə bilər. Bu kontekstdə Avropa dövlətlərinin müəyyən hallarda Azərbaycan qazına çıxış imkanlarını siyasi şərtlərlə bağlamağa çalışması da müşahidə olunmuşdur. Belə hallarda enerji ixracının yalnız bir istiqamətdə cəmlənməsi ölkənin iqtisadi və siyasi təhlükəsizliyi üçün risklər yarada bilər.

Bu baxımdan enerji nəqlinin şaxələndirilməsi - yəni, müxtəlif istiqamətlər üzrə paralel və alternativ marşrutların qurulması - Azərbaycanın təzyiqlərə qarşı davamlılığını artırır. Əgər hər hansı istiqamətdə siyasi və ya texniki səbəbdən təchizatda fasilə yaranarsa, digər istiqamətlər üzrə ixracat davam etdirilə bilər. Bu isə itkiləri minimuma endirərək Azərbaycanın enerji ixracında etibarlı tərəfdaş kimi imicini qoruyur.

Bu strategiyanın həyata keçirilməsi, eyni zamanda, Azərbaycanın enerji sahəsində geosiyasi rolunu daha da gücləndirir. Azərbaycanın Yaxın Şərq ölkələri ilə enerji sahəsində əməkdaşlıq imkanlarını dəyərləndirməsi və bu istiqamətdə konkret layihələrin icrası, regionda yeni enerji balansının formalaşmasına səbəb ola bilər. Bundan əlavə, bu siyasət Azərbaycanı regional və qlobal güc mərkəzləri arasında balanslaşdırılmış münasibətlər qurmağa imkan verir. Beləliklə, həm Qərbdən, həm də regiondakı digər aktorlardan gələn siyasi təzyiqlərə qarşı daha çevik və ağıllı diplomatik manevrlər həyata keçirmək mümkündür.

Nəticə etibarilə, Azərbaycanın enerji siyasətində şaxələndirmə yanaşması və Yaxın Şərq istiqamətinə çıxış imkanlarının genişləndirilməsi, milli təhlükəsizliyin, iqtisadi sabitliyin və siyasi müstəqilliyin təmin olunmasında mühüm rol oynayır. Bu strategiya Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu və ardıcıl siyasətin tərkib hissəsidir və ölkənin gələcək inkişaf perspektivlərini təmin edən mühüm faktorlardan biri kimi çıxış edir".

***Ayşən Vəli***





# Ümid sonda ölürmü?

Yaradılışın tarixi boyunca "ümid" anlayışına filosoflar, şairlər, yazıçılar, alimlər müxtəlif prizmadan baxıb. Kiminə görə ümid insanı diri saxlayan, həyat eşqini alovlandıran nəsnədir, kiminə görə aldadan, boş vəd verən, qeyri-müəyyən gələcəyə fokuslayan xülyadır. Ümid əslində bir inancdır, ölməyən duyğudur, köhnəlməyən düşüncədir. Ümid dinamikdir, özündə alternativ yolları, nikbinliyi, cəsarəti, mübarizəni ehtiva edir. Psixologiya elminə görə ümid müsbət psixologiyanın göstəricisidir. Ənənəvi psixologiyadan fərqli olaraq, müsbət psixologiya insanın güclü və müsbət cəhətlərinə diqqət çəkir və nikbinlik, xoşbəxtlik, məmnunluq kimi həyati keyfiyyətlərin mövcudluğunu dəstəkləyir. Ümid psixoloji dayanıqlılıqda əsas qoruyucu xüsusiyyət hesab olunur.

Ümidin ilk göstəricisi olan məqsəd ona doğru aparan yoldur. Məqsədimiz bizi öz istək və arzularımıza doğru ümidin işığında aparır. Yəni, məqsəd, ümidin reseptində ən vacib komponentdir. Ümidin ikinci komponentini məqsədə gedən yollar təşkil edir, üçüncü komponent isə o yollarda sərf etdiyimiz gücümüz, fəaliyyətimizdir.

Ümidli insanların məqsədlərinə çatmaqda daha uğurlu olduqları, daha pozitiv olduqları və daha çox psixoloji baxımdan möhkəm olduqları sirr deyil. Ümidli olmağı biz uşaq yaşda öyrənirik, böyüdüyümüz ev, valideynlər, çevrəmiz yaradır bizdə bu duyğunu.

Ümumiyyətlə, ümid anlamı həmişə araşdırmalar mövzusu olub, onun varlığı, yoxluğu bir çox alimi maraqlandırıb. Xüsusilə psixoloji gərginliyin, pessimizmin hökm sürdüyü son illərdə dünyada psixologiya, təhsil, səhiyyə və sosial elmlərdə ümid həmişə araşdırma mövzusu olub. Bir çox nəzəriyyəçilər, araşdırmaçı alimlər ümidin insan həyatındakı əhəmiyyətinin vacibliyini qəbul edirlər.

Martin Seligman və Charles R. Snyder kimi alimlər ümidi psixoloji sağlamlığın əsas dayaqlarından biri kimi təsvir edirlər. Snyderin "Ümid nəzəriyyəsi" deyir ki, ümid məqsədə yönəlmiş gücdən və həmin məqsədə çatmaq üçün yol tapma bacarığından ibarətdir. Snydərə görə ümid yalnız arzu deyil, o fəal psixoloji prosesdir.

Dünyada ümid mövzusunda ən çox Amerika universitetləri araşdırma aparır. Elə pozitiv psixologiyanın mərkəzi də ABŞ-dır, çünki psixologiyanın yeni bir sahəsi olaraq 1990-cı illərdə ABŞ-da formalaşıb. Bu psixologiyanın banilərindən olan Martin Seligman ümidi, optimizm, sevinc və müsbət psixologiyanın açarı hesab edir. ABŞ universitetləri hər il ümidlə bağlı elmi araşdırmalara milyardlarla dollar maliyyə ayırır. ABŞ universitetlərinin ümid mövzusunda çox araşdırma aparmasını akademik və maddi imkanlarının genişliyi, ümidin mədəni, sosial, ideoloji dəyər kimi qavranması ilə əlaqələndirirlər.

Tibb elminin bilicilərinə görə ümid xəstənin ən vacib dərmanıdır. Ən ağır xəstəlikdən belə ümidi olduğu üçün sağalan insnalar var və onlar üçün müalicə prosesində ümidin böyük gücü var. Xərçəng xəstələri, xroniki ağrısı olanlar, depressiya və travma sonrası stress yaşayan şəxslərlə bağlı aparılan bir çox tədqiqatlar göstərir ki, gələcəyə ümidi olan insanlar müalicələrə daha tez cavab verir. Pessimist, gələcəklə bağlı heç bir arzusu, ümidi olmayan insanların xəstəliklə mübarizəsi də çox passiv gedir.

Bu gün ABŞ, Kanada, Avstraliya kimi bir çox ölkədə psixoterapiyanın bir komponenti kimi xəstələrin müalicəsində ümid anlayışına xüsusi yer verirlir. Psixoterapevtlər deyir ki, ümid beyinlə bağlı prosesdir. Tədqiqatlar da göstərir ki, dopamin sistemi və prefrontal korteks ümid hissi ilə aktivləşir. Ümidin yoxluğu apatik davranışlara, beyin funksiyalarında zəifləməyə səbəb olur.

Ümid bir cəmiyyət üçün əhəmiyyətli anlayışdır. Xüsusilə münaqişə bölgələrində cəmiyyətlərin ümidə olan aclığı suya, çörəyə olan aclıq qədərdir. Müharibədən, təbii fəlakətlərdən, siyasi və iqtisadi böhranlardan sonra insanların gələcəyə olan inamını ümid formalaşdırır. Bəzən ümidi kasıbın son çarəsi, yaşama səbəbi olaraq da xarakterizə edirlər, hətta el arasında "ümid kasıbın çörəyidir" kimi sözlər də istifadə edilir.

Ünutmaq lazım deyil ki, ümid sosial-mənəvi motivasiyanın açarıdır. Ümid heç sonda da ölmür, Cek Londonun "Həyat eşqi" əsərini oxuyanlar ümidin bir insan üçün nə demək olduğunu ən bariz şəkildə anlayır. Bu əsər insanın yaşamağa və gələcəyə olan ümidini, o ümidə doğru gedən yolda olan əzmini çox gözəl izah edir.

***Lalə Mehralı***





# "Erməni" etnonimi "hay" etnonimi ilə üst-üstə düşmür

***Mövcud fakt və reallıq ondan ibarətdir ki, hər hansı çoğrafi ərazidə müxtəlif xalqların nümayəndələri, etnos yaşayırsa, deməli, o ərazidəki yer-yurd adları da məhz həmin etnosun adı ilə bağlı olacaqdır. Bu baxımdan da Qərbi Azərbaycanda-indiki Ermənistan adlanan ərazidə bütün dağ, dərə, düzənlik adları, yaşayış məntəqələri, çay, göl adları toponimlərin hamısı türk mənşəlidir. Belə ki, qədim dövrdən bu torpaqlar Azərbaycanın tərkib hissəsi olmuş və burada yaşayan əhali türksoylu olmuşdur.***

Ermənilər və "Ermənistan" anlayışı haqda məlumata görə, Azərbaycan dilində "Ermənistan" sözü 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində yaratdığı dövlətin (və ölkənin) adıdır. Ondan əvvəl "Ermənistan" adı məlum deyil (B. Budaqov, Q. Qeybullayev. Ermənistanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s. 19). Lakin tarixən "erməni" etnonimi ermənilərin özünü adlandırması olan "hay" etnonimi ilə üst-üstə düşmür. Haylar Ərməniyyədə - indiki Ermənistan ərazisində heç vaxt etnik çoxluq təşkil etməmişdir. Ermənilərin Ermənistan adlandırdıqları "Hayastan" adı ötən əsrin 20-ci illərində yaranmışdır.

Tarixdə qeyd edilir ki, ermənilərin əcdadları e.ə. XII-VII əsrlər arasında Balkan yarımadasından gələrək Kiçik Asiyanın şərqində, e.ə. XIV əsrdən məlum olan Hayasa və Arm əyalətlərində məskunlaşdılar. Urartunun hökmdarı e.ə. IX əsrdə Şərqi Anadoluda Van gölü ərazisində yaranmış bu iki əyaləti də işğal etmişdir. XV əsrin ikinci yarısından etibarən Eçmiədzin kilsəsi həmin mülkləri müxtəlif vasitələrlə azərbaycanlılardan almağa nail oldular.

## 1826-1828-ci illərdə İrəvan xanlığı ərazisində 1000-ə yaxın azərbaycanlı kəndi dağılmışdır

1747-ci ildə Nadir şahın ölümündən sonra, xanlıqların yarandığı dövrdə İrəvan mahalını Hüseynəli xan idarə edirdi. 1410-cu ildən 1828-ci ilədək İrəvan xanlığını idarə edən 49 türk-azərbaycanlının adı Hovanıs Şahxatunanın tərtib etdiyi siyahıda öz əksini tapmışdır (Azərbaycan tarixi. Bakı, 1994). Fransız missioneri İzriut Monye İrəvanda olanda əhalini siyahıya alarkən qeyd etmişdir ki, XVII əsrin ikinci yarısında İrəvanda yaşayan 4 min nəfər əhalinin cəmi 456 nəfəri erməndir.

1827-ci ildə rus qoşunları İrəvan qalasını işğal edərkən burada əhalinin 84 faizini azərbaycanlılar təşkil edirdi. Qalan 16 faizi isə "boşa" adlanan xristian qaraçılarından, assorilərdən, yezidi kürdlərdən digər millətlərdən ibarət olub. 1829-cu il Ədirnə müqaviləsindən sonra keşiş Baqratuninin başçılığı ilə Ərzurumdan, Qarsdan 90 min erməni İrəvana Qafqazın başqa ərazilərinə gətirilərək Qərbi Azərbayacan ərazilərində yerləşdirildi. 1828-ci ilin yazında isə Qriboyedovun rəhbərliyi ilə 50 min erməni Təbrizdən, Xoydan və b. ərazilərdən köçürülüb Qarabağda, Göycə mahalında yerləşdirdi. Buna qarşı səsini ucaldan azərbaycanlılar cəzalandırıldılar. 1826-1828-ci illərdə İrəvan xanlığı ərazisində 420-yə qədər azərbaycanlı kəndi dağıldı, bir çox kəndlərin adı xəritədən silindi. 1905-1920-ci illərdə indiki Ermənistan ərazisində 1000-ə yaxın azərbaycanlı kəndi viran edilmiş, əhalisi soyqırıma məruz qalmışdır.

1918-ci ilin martına qədər İrəvan quberniyasıda 198 kənd, 1919-cu ilin son iki ayı ərzində Üçkilsə (Eçmiədzin) və Sürməli qəzalarında 34 kənd, İrəvan qəzasında Zəngibasardan başqa bütün azərbaycanlı kəndləri talan olunmuş, dağılmış və yandırılmışdır. Ermənilər 1918-1920-ci illərdə ADR-in tərkibində olan Zəngəzur, Göycə, Dərələyəz, Qaraqoyunlu mahallarını, eləcə də bir sıra başqa əraziləri zorla öz torpaqlarına qatmaqla 29,8 min. kv. km-lik qondarma "Ermənistan dövləti"nə nail oldular. 1920-ci ildə bu torpaqlara yiyələnən ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Onların belə fəallığına Nəriman Nərimanov mane oldu. Təkcə 1935-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistan Ali Sovetinin müxtəlif fərmanları ilə bu ərazidə olan 994 yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Ali Sovetin fərmanı əsasında addəyişmə əməliyyatı 1935, 1938-39, 1940, 1946, 1950, 1957, 1962, 1967, 1969, 1977-78, 1980-cı illərdə düşünülmüş şəkildə həyata keçirilmişdir.

## Ermənilərin Bakıda yerləşdirilməsinə cəhdlər edilmişdir

Azərbaycan SSR XKS-in 20 yanvar 1940-cı il tarixli 57 saylı qərarına əsasən, təkcə 1940-cı ilin üç ayı ərzində Azərbaycana yalnız RSFSR-dən 3370 nəfər "fəhlə qüvvəsi" adı altında köçürülərək Bakıda iş və mənzillə təmin olunmuşdur. SSRİ XKS nəzdində iqtisadiyyat şurasının sədri A. Mikoyanın xüsusi canfəşanlığı və tapşırığı ilə 3370 nəfərdən 3220-si respublika əhəmiyyətli təsərrüfat idarələrində "əsasən rəhbər vəzifələrə təyin edilmişdir". A.Mikoyanın razılığı əsasında Bakıda yaradılmış köçürülmə şöbəsinə başçılıq edən N.Mirzoyan fürsəti əldən verməyərək "əzabkeş", "başı min bir bəlalar çəkmiş" ermənilərin də Bakıda mənzil və işlə təmin edilməsinə əlverişli şərait yaratmışdır. Fəaliyyət göstərən şöbə 1940-cı ilin ikinci rübündə DQMV-dən 1440 erməninin Bakıya köçürülməsinə şərait yaratdı. Həmin illərdə Azərbaycanın şəhər, qəsəbə, rayon və kəndlərindən Bakıda qeydiyyata düşmək dövlət səviyyəsində qadağan olunmuşdu. A.Mikoyanın göndərdiyi məktuba əsasən 1941-ci ildə 211 nəfər Stalinqraddan, Rostovdan Rusiyanın digər bölgələrindən Azərbaycana köçürülmüşdür.

1941-ci ilin sonlarında SSRİ XKS nəzdində köçürmə idarəsinin rəisinə göndərilən məktubda Rusiyanın ayrı-ayrı bölgələrindən 354 ailə Əli Bayramlı, Xaçmaz rayonlarında yerləşdirilmişdir. 1942-ci ildə Dağıstandan 900 ailə Azərbaycana köçürülmüşdür. Köçürülənlər əsasən ruslar, ermənilər və Dağıstandan gələnlər idi. Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi fürsətini əldən verməyən ermənilər ilk dəfə 1943-cü ildə üç böyük dövlətin (SSRİ, ABŞ, İngiltərə) iştirak etdiyi Tehran konfransı zamanı (28 noyabr- 1 dekabr) əldə etdilər.

Konfrans ərəfəsində hiyləgər erməni diasporunun rəhbərləri ölkənin xarici işlər naziri V.M.Molotovla əlaqə yaratmış, xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün Sovet dövləti başçısının razılıq verməsini xahiş etmişlər. Molotov elə oradan Stalinlə telefon danışığından sonra onun razılığını almışdır. Məkrli ermənilərə elə bu lazım idi. 1945-ci ilin aprelində dünya ermənilərinin patriarx-katalikosunun müavini Georq (Çeorskiyan) ərizə ilə Stalinə müraciət edərək dünya ermənilərinin dini mərkəzi olan Eçmiədzin monastırının fəaliyyətinə icazə verməsi üçün razılıq istəyir.

Aprelin 19-da Stalin öz xətti ilə "razıyam" yazandan sonra SSRİ XKS 1945-ci ilə noyabrın 21-də xüsusi qərarında xaricdən ermənilərin gəlməsinə razılığını bildirmişdir. 1946-cı ilin yanvarında 130 min erməni Ermənistana köçmək üçün Moskvaya müraciət edir. Artıq 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər,1947-ci ildə Fələstin, Fransa, ABŞ, Yunanıstan, Misir və Livadan 35,4 min erməni Ermənistan torpaqlarında yerləşdirilir (Vəliyev. I.Muxtarov. K.Hüseynov. F.Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı, 1998).

Bununla kifayətlənməyən ermənilər və Ermənistan KP MK- nın birinci katibi Q. Arutyunov yaranmış vəziyyəti əldən verməyərək 100 min azərbaycanlı əhalinin Azərbaycana köçürülməsinə Stalinin razılıq verməsini xahiş edir. A.Mikoyanın canfəşanlığının nəticəsində erməni lobbisi azəri-türklərin yaşadıqları dədə-baba yurdlarından Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi üçün zəmin hazırlanmasına nail oldu. 1945-ci il oktyabr 20-də SSRİ XKS 2264 saylı qərar qəbul etmişdir. Bu azmış kimi Q. Arutyunov 1945-ci ilin 28 noyabrında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təklifini ÜİK /b/ PMK-nın sərəncamına verdi.

İ. Stalin həmin məktubu Malenkova, o isə öz növbəsində cavab üçün onu Azərbaycan rəhbərliyinə göndərdi ki, Ermənistan K/b/ PMK-nın təklifinə öz münasibətini bildirsin. Azərbaycan hökuməti 1945-ci il dekabrın 10-da 330 saylı sənədlə göndərilən cavabında erməni hökumətinin irəli sürdüyü bütün iddialarının əsassız olduğunu göstərdi. M. Bağırov qeyd etmişdi ki, Dağlıq Qarabağın ərazisi Qarabağ xanlığının ərazisində olmuşdur və xanlığın mərkəzi də Pənahabad /Şuşa/ idi. Bu qala Qarabağ xanı Pənah xan tərəfindən tikilmişdir. 1826-cı ildə bu xanlıq çar Rusiyasına birləşdirildikdən sonra indiki DQMV-nin ərazisi Yelizovetpol quberniyasının Şuşa, Cavanşir, Qaryağın (indiki Füzuli) və Qubadlı qəzalarının tərkibində idi. 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində mərkəz Şuşa olmaqla Qarabağ general-qubernatorluğu təşkil edildi. Daşnak bandaları Şuşa və digər şəhərləri dağıdıb oda qərq etdilər. 1923-cü ildə Qarabağın dağlıq hissəsinin - ermənilərin çox olduğu yerin Ermənistana birləşdirilməsi məsələsi ortaya atıldı. Bu ərazinin Ermənistanla ümumi əlaqəsi olmadığına və bura Qubadlı, Laçın, Kəlbəcər, Dəstəfur rayonları ilə ayrı olduğuna, burada əhali azərbaycanlılardan ibarət olduğuna görə Azərbaycan MİK-nın 1923-cü il 7 iyul tarixli dekreti ilə mərkəz Xankəndi olmaqla DQMV yaradıldı. Dağlıq Qarabağ ərazisi cəhətdən Ermənistanla heç vaxt yaxın olmayıb. M. Bağırov ÜİK/b/ PMK-nın nəzərinə bunları çatdırdı ki, Dağlıq Qarabağın Ermənistana daxil edilməsi məsələsinə baxarkən, eləcə də əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan və bizim sərhədlərə yaxın olan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının tərkibinə qatılması məsələsinə də baxılsın. ÜİK/b/ PMK-dan xahiş olunurdu ki, bu məsələlərə də baxılsın. Gürcüstan hökuməti də Azərbaycanın Balakən, Zaqatala və Qax rayonlarının onlara verilməsi məsələsini qaldırır. Bu bölgədə 79 min əhalidən 9 mini gürcü-inqiloylardır. Biz bunun baxılmasına da etiraz etmirik. O halda ki, Gürcüstanın tərkibində olan Borçalı rayonunun Azərbaycana birləşdirilməsinə baxılsın. Keçmişdə Azərbaycanın tərkib hissəsi olmuş Bakı quberniyasına daxil olan Dərbənd və Qasımkənd ərazilərini Azərbaycanın tərkibinə daxil edilməsi məsələsinə də baxasınız. Onlar maldarlıqla məşğul olur və ilin 9 ayını bizim ərazidə olurlar. M. Bağırovun bu əsaslı cavabı çoxlarını susdurdu. İrəli sürülən bu şərtlər, Ermənistan bir yana, heç mərkəzi də təmin edə bilmirdi.

## Qəsbkar siyasətin əsasının qoyulduğu tarix

Məkrli erməni toplumu yaşayış məntəqələrini siyahısını əvvəlcədən hazırlamışdılar. Azərbaycanlıları əsasən İrəvan şəhəri və ona yaxın olan rayonlar - Əştərək, Zəngibaşar, Eçmiədzin, Oktenberyan, Qəmərli (yeni adı Artaşat), Qarabağlar, Vedi, Axta (Razdan), Əzizbəyov və s. rayonlara daxil etmişdilər. Mikoyan-Stalin-Arutyunov-Bağırov sövdələşməsi SSRİ NS-in "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 saylı qərarı ilə nəticələnir. Bu, xalqımıza qarşı ən ağır zərbə, əsl repressiya idi. Ermənistandan 100 min əhalinin köçürülməsi ilə bağlı tədbirlər planı - ən mühüm məsələ yalnız 2 ay 18 gündən sonra - 10 mart 1948-ci il tarixdə SSRİ NS-in "Ermənistan SSR ərazisində kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarında öz əksini tapmaqla şərh edilmişdir.

## Azərbaycanlılar zorla öz yurdlarından didərgin salındılar

1948-ci ilin iyun ayının əvvəllərində Qərbi Azərbaycandan zorla çıxarılan azərbaycanlılar Azərbaycanın Kür-Araz ovalığına yerləşdirilir. İlk köçürülən azərbaycanlı ailəsi indiki Beyləqan rayonundakı sovxozlarda yerləşdirilmişdir. Onlar sovxoz rəhbərliyi tərəfindən torpaq sahəsi və əkin üçün toxumla da təmin olundular. 1948-ci ilin yazınadək deportasiyanın ilk qurbanlarından 320 ailə Salyan, 140 ailə Saatli, 545 ailə Sabirabad, 260 ailə Əli bayramlı, 150 ailə Puşkin, 75 ailə Ağcabədi, 100 ailə Xilli rayonlarının quru çöllərində, susuz səhralarında, ilan mələyən düzənliklərdə yaşamağa məcbur edildi. Bu, 6400 nəfəri birləşdirən 1590 ailə idi. Həmin ilin yay aylarında deportasiya olunanların ikinci dəstəsi indiki Ermənistandan - doğulub boya-başa çatdıqları doğma torpaqlarından köçürüldülər. Bunlardan 2747 ailə -- 12177 nəfər Azərbaycana pənah gətirdi. 1949-cu il noyabrın 25-də Ermənistan ərazisini bir neçə rayonundan 600 ailə - 2500 nəfər Azərbaycana deportasiya edildi.

Beləliklə, 1949-cu ildə Ermənistandan azərbaycanlı əhali kütləvi şəkildə Kür-Araz ovalığındakı Zərdab, Əli bayramlı, Kürdəmir, Mingəçevir, Salyan, Yevlax və digər rayonlara köçürülür. Ermənilərin "türksüz Ermənistan" siyasətinin bir mərhələsi olan 1948-1953-cü illərdə 180 min azərbaycanlı zorla öz tarixi- etnik torpaqlarından deportasiya edildi. Amma Azərbaycan xalqı 1948-1949-cu illərdə və eləcə də sonrakı dövrlərdə ermənilər tərəfindən deportasiyay məruz qalmış və bu işi 1988-ci ildə yenidən bir daha həyata keçirdilər. Bu bizim xalqımıza qarşı edilən yeni bir ədalətsizliyin nəticəsidir. Düşünülmüş şəkildə ermənilərin törətdikləri etnik təmizləmə ardıcıl şəkildə tarix boyu davam etmişdir. Təəssüflər olsun ki, biz tarixin müxtəlif mərhələlərində belə hadisələri dərindən dərk etməmiş və xalqımıza edilən haqsızlıqlara qarşı öz səsimizi vaxtında və qədərincə qaldırmamışıq. Məhz bunların nəticəsində 1988-ci ildə erməni daşnak ünsürləri öz rəhbərlərinin tapşırığını yerinə yetirərək xalqımıza qarşı təcavüz etdilər. Öz yurdlarından zorla qısa müddətdə çıxarıldılar. Ermənistan adlanan erazinin çox hissəsi azərbaycanlıların əsirlərlə yaşadıqları doğma diyar olmuşdur. Bu, ərazidə yaşayan azərbaycanlıların tədricən çıxarılmasına və 1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün başlanmasına gətirib çıxardı. 1988-ci il soyqırımı nəticəsində Zəngibasar rayonun azərbaycanlı kəndlərindən olan 29 nəfər həlak oldu və xeyli insan şikəst olaraq ömürlük xəstəyə çevrildi. Erməni vəhşilərinin Azərbaycana qarşı törətdikləri bu soyqırım siyasəti heç bir yerdə deyilmədi və səsimiz eşidilmədi. Bütün bu fəlakətlər ozamankı Azərbaycan rəhbərlərinin qorxaqlığı öz vəzifələrindən möhkəm yapışmaları nəticəsində baş verdi.

**İLHAM ƏLİYEV**

ARAŞDIRMA

# Zülmətə bürünən küçə - İşıqları niyə yandırılmır?

***Bakı şəhərinin bəzi ərazilərində gecə saatlarında küçə işıqlarının işləməməsi və ya ümumiyyətlə olmaması müşahidə olunur. Bu problem xüsusilə paytaxtın mərkəzdən kənar qəsəbə və mikrorayonlarında - Biləcəri, Binə, Hövsan, Xətai, Sabunçu, Ramana və ya Keşlə kimi ərazilərdə daha çox nəzərə çarpır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Səbəblər nədir?

Köhnəlmiş infrastruktur: İllər əvvəl quraşdırılmış işıqlandırma sistemlərinin texniki cəhətdən köhnəlməsi və yenilənməməsi.

Texniki nasazlıqlar: Elektrik naqillərində, transformatorlarda və ya işıq dirəklərində yaranan nasazlıqların vaxtında aradan qaldırılmaması.

Bələdiyyə və kommunal xidmətlərin yetərsiz fəaliyyəti: Məsul qurumların bəzi hallarda məsuliyyətsiz davranması və problemlərə gec müdaxilə etməsi.

Layihələndirmədə boşluqlar: Yeni salınan və ya genişləndirilən yolların işıqlandırma planında nəzərə alınmaması və ya işıqlandırma dirəklərinin quraşdırılmaması.

## Bəs, bu problemlər nə ilə nəticələnir?

Sürücülər üçün təhlükə: Qaranlıq yollar yol qəzası riskini artırır. Görmə məsafəsinin azalması səbəbindən sürücülər manevrləri və piyadaları gec görür.



Piyadalar üçün risk: Xüsusilə yaşlı insanlar, uşaqlar və qadınlar üçün təhlükəsizlik problemi yaranır. Qaranlıqda yol keçmək və ya səki ilə hərəkət etmək çətinləşir.

Cinayət halları: İşıqsız küçələrdə oğurluq, soyğunçuluq və digər hüquq pozuntuları riski artır.

Yaşayış keyfiyyətinin aşağı düşməsi: Qaranlıq və təhlükəli mühit şəhər sakinlərinin gündəlik həyat keyfiyyətinə birbaşa təsir edir, narahatlıq və narazılıq yaradır.

## Həll yolları nələrdir?

İnfrastrukturun yenilənməsi: Qədim və nasaz işıq sistemlərinin mərhələli şəkildə müasir texnologiyalarla əvəz olunması.

Enerji qənaətli LED sistemlərinin tətbiqi: Hem daha güclü işıqlandırma, həm də az enerji sərfiyyatı üçün LED texnologiyalarına keçid.

Yerli icra hakimiyyəti və "Azərişıq" arasında koordinasiyanın artırılması: Məlumatların operativ paylaşılması və problemlərin birgə həlli üçün qurumlararası əməkdaşlığın gücləndirilməsi.

Vətəndaşların şikayət mexanizmlərinin sadələşdirilməsi: 24/7 qaynar xəttlər, mobil tətbiqlər və ya onlayn platformalar vasitəsilə işıqlandırma ilə bağlı problemlərin aidiyyəti orqanlara çatdırılması.

Mövzu ilə bağlı redaksiyamıza bir sıra şikayətlər də daxil olub.

**Şikayətçi Aidə Qarayeva:** "Xutor Məmməd Əmin Rəsulzadə küçəsində (Ziya Bünyadov da sayılır) 15-ci sırada yaşayırıq. Məhlədə göz-gözü görmür. Yaşlı var, uşaq var. Belə olmaz. Məhlə içi bir dənə belə işıq dirəyi yoxdur. Müvafiq qurumlardan xahiş edirik ki məsələ ilə bağlı tədbir görülsün".

**Şikayətçi Ləman Vəliyeva:** "Zığ- Hövsan yolunun bir hissəsi işıq dirəkləri ilə işıqlandırılsa da Hövsan yolunun Bahar qəsəbəsi yaxınlığındakı hissəsi qaranlıqdır. İşıq dirəkləri olsa da işıqlar yandırılmır. 4 zolaqlı magistral yolun sağ hissəsində avtobus dayanacağı və yolun sol hissəsində qəsəbələr var. Axşam saatlarında o yolu sakinlər (4 zolaqlı yolda) qaça -qaça keçməli olurlar Bu da piyadaları ölümlə üzüzə qoyur. Hətta o yolda dəfələrlə ölümlə nəticələnən qəzalar olub".

**Şikayətçi Elnarə Nəsibova:** "Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, Ümid küçəsində yaşayıram. Təəssüf ki, bu ərazidə küçə işıqlandırması tamamilə yoxdur və bu problem illərdir davam edir. Axşam saatlarından etibarən küçə tam qaranlığa qərq olur, bu isə gündəlik həyatımıza mənfi təsir göstərir.

Gecə vaxtı küçə işıqlarının olmaması bizi ciddi şəkildə narahat edir. Qaranlıqda nə yolu, nə insanları, nə də nəqliyyatı düzgün görmək olur. Bu vəziyyət həm təhlükəsizlik baxımından, həm də rahatlıq cəhətdən böyük problem yaradır.

Bu səbəbdən aidiyyəti qurumlardan xahiş edirik ki, Ümid küçəsində küçə işıqlandırmasının təmin olunması ilə bağlı tezliklə tədbir görülsün. Bu, sakinlərin gündəlik həyatı və təhlükəsizliyi üçün son dərəcə vacib məsələdir".

**Şikayətçi Elgün Nəsibov:** "Binəqədi rayonu, Sulutəpə qəsəbəsi, Ümid küçəsində yaşayıram. Uzun illərdir bu küçədə küçə işıqlandırması yoxdur və bu problem hələ də həll olunmayıb. Axşam saatlarında küçəmiz tamamilə qaranlığa bürünür ki, bu da həm yaşayış üçün çətinliklər yaradır, həm də təhlükə mənbəyinə çevrilir.

Yollarda heç nə görünmür, nə piyadalar, nə də avtomobillər rahat hərəkət edə bilmir. Belə şəraitdə hərəkət etmək həm qəza riski yaradır, həm də insanlarda qorxu hissi doğurur".

## Həmçinin, şəhər sakinlərinin fikirləri öyrənilib.

**Şəhər sakini Ayaz Zeynalzadə:** "Mənim yaşadığım ərazidə işıqlandırma normaldır və öz küçəmizdə bir problem yaşamıram. Lakin bəzi küçələrdən keçərkən işıqlandırmanın olmaması narahatlıq törədir ya heç işıqlandırma yoxdur, ya işlək deyil. Yaşlı insanların bundan daha çox əziyyət çəkdiyinə şahid oluram".

**Şəhər sakini Sona Gündüz:** "Paytaxtda daim tıxac olduğu üçün, çox zaman evə gec saatda çatıram. Bu səbəbdən xüsusilə də qış vaxtı, hava tez qaraldığı üçün işıqlandırması olmayan küçələr problem yaradır. Qaranlıq küçələrdə hərəkət etmək çətinləşir.

Təkcə gecə yox, erkən saatda durub işə gedən biri olaraq qış vaxtı qaranlıq küçədə, qarlı, buzlu yolda hərəkət etmək də, fikrimcə, təhlükəlidir.

Bir çox məhəllələrdə işıqlandırma problemi ilə qarşılaşan sakinlər özləri həyət önlərinə işıq çəkirlər. Amma yaxşı olardı ki, aidiyyəti qurumlar bu məsələni özləri diqqətdə saxlasınlar".

**Şəhər sakini Röya Vahabova:** "Hökməli qəsəbəsində yaşayıram. Axşamlar hava qaralandan sonra bizim küçənin işıqlandırılması fərdi qaydada aparılır. Qonşularla birləşib dirəyə işıq bağlamışıq. İşıq evlərdən idarə olunur. Əgər işığı yandırmaq unudularsa qaranlıq olur yenə. Hər bir halda evə çatana qədər olan qaranlıq yolu mən telefon fənəri ilə keçirəm.

Təbii ki, küçələrdəki işıqlandırma qaydasında olsa axşam evdən çıxmaqda daha sərbəst ola bilərik. İndiki halda demək olar ki, hava qaraldıqdan sonra çölə çıxmıram. İşdən qayıdanda da fənərdən istifadə edirəm".

**Şəhər sakini Nicat Məmmədov:** "Bəli, axşam saatlarında küçə və ya məhəlləmizdə işıqların olmaması səbəbilə evdən çıxmaqdan çəkinirəm. Çünki bu cür şəraitdə həm piyada, həm də sürücü üçün ciddi təhlükə yaranır. Küçə işıqlandırmasının olmaması yolu görməkdə çətinlik yaradır, bu da kor zonaların sayını artırır və qəza riskini yüksəldir. Hətta bəzən yolu düzgün görə bilmədiyim üçün büdrəyib yıxıldığım hallar da olur. Ümumilikdə, belə qaranlıq mühit insanın özünü təhlükəsiz hiss etməsinə imkan vermir".

**Şəhər Sakini Zeynəb Cəfərli:** "Küçələr işıqsız olanda axşam saatlarında çölə çıxmaq qorxulu olur. Qaranlıq olanda yolu düzgün görmək olmur, insan çuxura düşə bilər, nəyəsə ilişə bilər.

Bəzən küçələrdə sahibsiz vəhşi itlər dolaşır. İşıqsız küçələrdə onları görmək mümkün olmur və bu, qorxulu ola bilər. Qaranlıqda yol görünmədiyi üçün qəza ehtimalı da yüksək olur".

**Şəhər sakini Zərintac Mayisqızı:** "Müasir şəhər infrastrukturunda küçə işıqlandırılması insanların təhlükəsizliyi və sosial rifahı baxımından son dərəcə əhəmiyyətli məsələdir. Təəssüf ki, Bakının və digər şəhərlərin bir çox məhəllələrində, xüsusən də yaşayış massivlərində küçə və həyətlərin tam və ya qismən işıqsız olması müşahidə olunur. Bu vəziyyət təkcə rahatlığın deyil, həm də təhlükəsizliyin ciddi şəkildə pozulmasına səbəb olur.

Gecə saatlarında evdən çıxmaq və yaxın məsafəyə - məsələn, mağazaya, aptekə və ya dayanacağa getmək ehtiyacı yarananda işıqsız küçələrdə hərəkət edən insanlar real təhlükə hissi ilə üzləşirlər. Çünki aydın işıqlandırma olan ərazilərdə insan ətrafı rahat müşahidə edə, potensial təhlükələri əvvəlcədən sezə bilir. Amma qaranlıqda bu imkan demək olar ki, olmur. Belə şəraitdə fiziki təhlükə riski ilə yanaşı, insanlarda psixoloji narahatlıq, qorxu, təlaş və təhlükə gözləntisi də yaranır.

Küçə işıqlarının olmaması təkcə real təhlükələri artırmır, eyni zamanda vətəndaşların özlərini cəmiyyətin bir parçası kimi hiss etməsinə də mənfi təsir göstərir. Bu cür laqeydlik hissi və sosial məsuliyyətin zəifliyi insanlarda dövlət strukturlarına və yerli idarəetmə orqanlarına inamsızlıq formalaşdıra bilər.

Bu problemin şəxsi həyat təcrübəsindəki təzahürlərinə nəzər yetirdikdə, məsələn, universitet illərində kirayədə yaşayan tələbələrin, axşam dərsdən sonra qaranlıq küçələrdən keçərkən yaşadıqları narahatlıq, problemin nə qədər ciddi və geniş yayılmış olduğunu göstərir. Yəni işıqlandırma yalnız texniki məsələ deyil - sosial rifahın, ictimai təhlükəsizliyin, şəhər mədəniyyətinin və psixoloji sağlamlığın tərkib hissəsidir.

Əhalinin gözləntisi ondan ibarətdir ki, müvafiq qurumlar - xüsusilə Bakı Şəhər İcra Hakimiyyəti, "Azərişıq" və bələdiyyə strukturları bu məsələyə ciddi yanaşsın, qaranlıq küçələrdə operativ şəkildə işıqlandırma sistemləri quraşdırılsın və onların fasiləsiz fəaliyyəti təmin olunsun. Bu, həm də kriminal halların azalmasına, ictimai asayişin qorunmasına və vətəndaş məmnuniyyətinin artmasına xidmət edəcəkdir".

Mövzu ilə bağlı müvafiq qurumlara da sorğu ünvanladıq.

**"Bakı Abadlıq Xidməti"nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Lalə Əliyeva** bildirib ki, şəhərin işıqlanması ilə bağlı bütün suallar "Bakı şəhər işığı"na aiddir: "Bakı, Abşeron və bölgələr üzrə Bakı Abadlıq Xidmətinin fəaliyyət göstərdiyi bütün ərazilərdə elektrik dirəkləri müvafiq icra qurumlarına (paytaxtda "Bakı şəhər İşığı" Elektrik şəbəkə müəssisəsinə, Abşeronda, Quba, İsmayıllı, Ağdaşda və s yerli icra hakimiyyətlərinə) təhvil verilib. Son təhvil- təslim aktı 24 dekabrda notarial qaydada imzalanaraq təsdiqlənib. Həmin tarixdən etibarən BAX işıqlanmada yaranan problemlərlə bağlı məsuliyyət daşımır, şirkət tərəfindən heç bir servis xidməti həyata keçirilmir. Hazırda işıqlanma ilə bağlı yarımçıq qalmış layihəmiz yoxdur".





**"Azərişıq" ASC-nin Mətbuat xidmətinin rəisi Vaqif Aydınoğlu** isə qeyd edib ki, küçə işıqlandırılması müvafiq quruma aid olan məsələ deyil. Bu tamamilə başqa quruma aiddir.

***Ayşən Vəli***

# Bir teatrın Makronu

## *Fransa prezidenti Qrenlandiyanı və dünya okeanlarını "xilas" edir*

***Fransa prezidenti Emmanuel Makron dərin dənizin inkişafı və Qrenlandiyanın ABŞ-a birləşdirilməsinin əleyhinə çıxış edib və Şimali Atlantika və Arktikanın təhlükəsizlik məsələlərinin həllində Parisin rolunu artıracağını vəd edib. Fransa liderinin gurultulu bəyanatları iyunun 9-dan 13-dək Fransanın sədrliyi ilə Nitsa şəhərində keçirilən və 50-dən çox dövlət və hökumət başçısının iştirak etdiyi BMT-nin okeanlar üzrə üçüncü beynəlxalq konfransında səsləndirilib. Okean sammiti başa çatdıqdan sonra prezident Makron prezident Trampın iddialarına qarşı mübarizədə onu dəstəkləmək üçün iyunun 15-də Qrenlandiyaya səfər edən ilk xarici lider olacaq.***





BMT-nin Baş katibi Antonio Quterreş və 50-dən çox dövlət və hökumət başçılarının iştirak etdiyi BMT-nin Okean Konfransı (UNOC 3) Dünya Okeanının qorunması üçün qlobal kampaniyaya çevrilmək niyyətindədir. Fransanın sədrliyi ilə Nitsadakı Kot d'Azurda keçirilir. "Okean bizim ən böyük ümumi sərvətimizdir, lakin biz onu məhv edirik. Əgər kursu dəyişməsək, dəniz səviyyəsinin qalxması deltaları su basacaq, sahil zonalarını məhv edəcək və hətta bir çox adaların mövcudluğuna təhlükə yaradacaq. Sağlam okean olmadan sağlam planet də ola bilməz", - Antonio Quterreş forum iştirakçılarına müraciət edib.

Konfransın açılışında çıxış edən Fransa prezidenti Emmanuel Makron ekoloji və geosiyasi məsələləri birləşdirərək okean mövzusuna daha da dərindən girib və yol boyu ABŞ prezidenti Donald Trampa üstüörtülü çağırış atıb. "Dərin dənizi inkişaf etdirməyək, ekosistemimizi qoruyaq. Çünki bundan sonra nə baş verə biləcəyini bilmirik, çünki orada çox vacib karbon ehtiyatları var, çünki orada hələ heç kimin kəşf etmədiyi orqanizmnövləri var. Bu mübarizə hamımız üçün həyati əhəmiyyət kəsb edir. Mən qəti şəkildə deyirəm: Qrenlandiya, dəniz və yüksək dənizlər kimi, dəniz anbarı kimi satılmır", Makron xəbərdarlıq edib.

Nitsada keçirilən forum çərçivəsində keçirilən mətbuat konfransında çıxış edən Fransa prezidenti 2026-cı il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulan BMT-nin Qlobal Okean Müqaviləsinin dünya dövlətləri tərəfindən ratifikasiyasının onun rəhbərliyi altında necə getdiyindən danışıb. "Hazırda bizim 55 ratifikasiya sənədimiz, konkret tarixlə 15-ə yaxın ratifikasiya etmək niyyətimiz var və ilin sonuna kimi daha 15 ölkə bunu etmək niyyətindədir. Beləliklə, BMT Baş Assambleyasının sentyabrda keçiriləcək 80-ci sessiyasına qədər ən azı 60 zəruri ratifikasiya sənədi BMT-yə təqdim olunacaq ki, bu da bizə qüvvəyə minən konvensiyanın qüvvəyə minməsinə imkan verəcək", - Fransa lideri Nitsada keçirdiyi mətbuat konfransında bildirib.

BMT-nin Okean Konfransının ilk günündə əsas hadisələrindən biri prezident Makron və Çinin vitse-prezidenti Han Zheng arasında görüş olub. Okean mövzusunu dəyişən yüksək çinli qonaq Fransanı "strateji muxtariyyət axtarışında" tərifləyib. Bununla o, ABŞ-da prezident Tramp hakimiyyətə gəldikdən sonra Avropanın qeyri-rəsmi lideri olmaq ambisiyalarını dəfələrlə bəyan etmiş prezident Makronla bərabər oynayıb.

Prezident Makron BMT-nin Okean Konfransından sonra Avropa suverenliyinin gücləndirilməsi və Fransanın beynəlxalq rolunun artırılması məsələsini həll etmək üçün Qrenlandiyaya səfər edəcək. Makronun Danimarka krallığının bir hissəsi olan, lakin geniş muxtariyyətə malik adaya iyunun 15-nə planlaşdırılan səfərini elan edən Yelisey sarayı Fransa prezidentinin "ABŞ prezidentinin onu ilhaq etməklə hədələməsindən" sonra Qrenlandiyaya səfər edən ilk xarici lider olacağını qeyd edib.

Səfər proqramına prezident Makron və Qrenlandiya hökumətinin başçısı Yens-Frederik Nilsen və Danimarkanın baş naziri Mette Frederiksen arasında Şimali Atlantika və Arktikada təhlükəsizlik, eləcə də iqtisadi inkişaf, iqlim dəyişikliyi və enerji məsələləri üzrə danışıqlar daxildir. Baş nazir Frederiksen Makronun səfəri ərəfəsində deyib: "Son ayların çətin xarici siyasət vəziyyətində Qrenlandiya və Danimarkaya böyük beynəlxalq dəstəyi hiss etmək sevindiricidir: "Prezident Makronun Qrenlandiyaya gözlənilən səfəri Avropa birliyinin daha bir konkret əlamətidir".

Prezident Trampın Qrenlandiyanın ABŞ-ın tərkibinə daxil olması barədə bəyanatlarından sonra prezident Makron dəfələrlə Ağ Ev rəhbərinin ünvanına qızışdırıcı ifadələr işlədib, "adanın ələ keçirilməsi" planlarına mənfi münasibət bildirib.

### ABŞ-ın adanı almaq cəhdlərinə Qrenlandiya necə cavab verdi?

Bu ilin aprelində Fransa və Danimarka strateji tərəfdaşlıq sazişi, eləcə də "Mistral" raketlərinin Kopenhagenə ötürülməsinə dair saziş imzalayıb. Bundan əvvəl Fransanın xarici işlər naziri Jan-Noel Barrot ölkəsinin Danimarka ilə regionda təhlükəsizliyi təmin etmək üçün Qrenlandiyaya qoşun yeritmək imkanını müzakirə etdiyini bildirmişdi. Bundan əlavə, iyunun əvvəlində Qrenlandiya hökuməti Danimarkanın F-16 qırıcıları, EH-101 helikopterləri və hərbi freqat yerləşdirməklə bu yay adadakı hərbi mövcudluğunu gücləndirəcəyini açıqlamışdı.

Prezident Makronun Şimali Atlantika və Arktikada qlobal problemlərin və təhlükəsizlik məsələlərinin həllinə dönüşü Almaniyanın yeni kansleri Frederik Merzin ön plana çıxdığı, onu fəal dəstəklədiyi və Kiyevə hərbi yardımı artırdığı Ukraynadakı rolunun nəzərəçarpacaq dərəcədə azalması fonunda baş verir. Prezident Makron və Böyük Britaniyanın baş naziri Key Starmerin Ukraynaya hərbi kontingent göndərmək üçün Avropa dövlətləri əsasında "istəklilər koalisiyası" yaratmaqla bağlı birgə təşəbbüsü bu gün praktiki olaraq puça çıxıb. Financial Times qəzetinin mayın sonunda avropalı rəsmiyə istinadən yazdığı kimi, bu təklif ABŞ rəhbərliyindən razılıq almadıqdan sonra mənasını itirib. Ukrayna istiqamətində yanlış atəş, görünür, Arktikada prezident Trampa asimmetrik cavab vermək və özünü Dünya Okeanının xilaskarı kimi təqdim etmək qərarına gələn prezident Makronu utandırmayıb.

Avropanı və dünyanı yenidən təşkil edən prezident Makron BMT-nin okeanlar üzrə həmin beynəlxalq konfransında Fransadakı daxili siyasi vəziyyətlə bağlı yeni bəyanatla çıxış edib. Makronun sözlərinə görə, o, parlamentin növbəti dəfə buraxılmasını istəmir, lakin müxalifətin onun işinə "əngəl törədəcəyi" təqdirdə yenidən bu tədbirə əl atacağını istisna etmir. "İstərdim ki, yeni buraxılma olmasın. Amma özümü konstitusion səlahiyyətlərimdən məhrum etmək verdişim deyil. Çünki siyasi partiyalar özlərini məsuliyyətsiz aparsalar, mən yenidən konstitusiyaya əl atmalı olacağım vəziyyətə düşə bilərəm", - Fransa lideri hədələyib. Keçən ilin yayında partiyasının Avropa Parlamenti seçkilərindəki uğursuzluğundan sonra Emmanuel Makron Milli Assambleyanın buraxıldığını və növbədənkənar seçkilərin keçiriləcəyini açıqlamışdı. Nəticədə heç bir siyasi qüvvə yeni hökuməti formalaşdırmaq üçün səs çoxluğu əldə edə bilmədi. Nəticədə 2024-cü ildə Fransada dörd baş nazir dəyişib ki, bu da ölkə üçün tarixi rekorddur.

***V.VƏLİYEV***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*

**ELMİN SONU**

(XXXI YAZI)

Seriyamızın bundan əvvəlki hissələrindən başlayaraq insan orqanizmində insanın necə yaranması haqda maraqlı faktları təqdim edirik. Ötən hissələrdə embrionun ana bətnində formalaşması zamanı ən vacib orqanların necə əmələ gəldiyindən və dünyaya gəlişin son hazırlıqlarından danışmışdıq. Bu hissədə insanın təhlükəsiz doğuluşu və dünyadakı ilk günlərini təmin etmək üçün yaradılış mexanizmlərindən danışacağıq- xüsusən ana orqanizmində gedən proseslərdən.



## Yeni insanın təhlükəsiz doğuluşu və ilk dövrünü yaşaması üçün təşkil olunan proseslər

Körpənin doğulduğu andan bədəni yeni həyata uyğunlaşmalıdır. Bu uyğunlaşmanı asanlaşdırmaq üçün hamiləlik boyu hər cür faktor yaradılır. Bunun ən bariz nümunəsi ana südünün əmələ gəlməsi mərhələləridir.

Hamiləlik dövründə ananın hormonları ananı süd istehsalına hazırlayır. Süd istehsalı əsas olaraq beyindəki ön hipofiz vəzi tərəfindən istehsal olunan "prolaktin" adlı hormondan asılıdır. Hamiləlik dövründə bu hormonun aktivləşməsi və süd istehsalının başlamasına plasenta tərəfindən istehsal olunan progesteron və estrogen hormonları tərəfindən maneə törədilir. Ancaq doğumdan sonra plasenta xaric edildikdə, qanda progesteron və estrogen səviyyələri azalır və süd istehsalına kömək edən prolaktin öz yerini alır.

Hormonlar arasındakı bu əlaqə sayəsində ana südü kimi qiymətli bir qida tam olaraq körpənin ehtiyac duyduğu anda hazır olur. Bu, şübhəsiz ki, mükəmməl prosesdir. Plasenta bədənin içində olarkən həyati funksiyaları yerinə yetirirdi, lakin indi onun xaric edilməsi vaxtıdır. Bu, insan həyatı üçün son dərəccə vacibdir.

Göründüyü kimi, insanın yaradılışı zamanı hər saniyədə baş verən hər detal bir-birini tamamlayan bir prosesin hissələridir; biri olmadan digəri olmazdı. Təbii ki, bütün bunlar hər bir insanın ali bir qüdrətlə qurulduğunun əyani sübutudur.

Üstəlik, bu mərhələlər körpə doğulduqdan sonra da davamlı olaraq davam edir. Körpənin qida ehtiyacını ödəmək üçün ananın südü istehsalı da artır. İlk günlərdə təxminən 50 qram olan istehsal 6-cı aya qədər gündəlik 1 litrə qədər arta bilər. Ana südünün formulasını müəyyən etmək üçün çalışan elm adamları geniş araşdırmalardan sonra bunun mümkün olmadığını anladılar.

Ana südünün standart növü yoxdur. Hər bir ananın orqanizmi övladının ehtiyaclarına uyğun süd istehsal edir və bu süd körpəni heç bir xarici qidanın edə bilməyəcəyi dərəcədə qidalandırır. Araşdırmalar sübut edib ki, ana südündəki antikorlar, hormonlar, vitaminlər və minerallar körpənin ehtiyaclarına mükəmməl şəkildə uyğunlaşdırılır.

Ana südü əvəzinə başqa qidalardan istifadə körpənin ehtiyaclarını tam ödəyə bilməz. Məsələn, başqa heç bir qida maddəsi körpənin immun sistemi üçün lazım olan antikorları ehtiva etmir. Körpələr üçün klassik qidalandırıcı qida sayılan inək südü ilə müqayisədə ana südünün üstünlüyü daha aydın görünür. İnək südündə insan südündən daha çox kazein var. Kazein laxtalanmış (mayalanmış) süddə olan bir proteindir. Bu maddə mədədə daha böyük hissəciklərə parçalanaraq həzmini çətinləşdirir. Buna görə də inək südü ana südündən daha çətin həzm olunur. Ana südündə bu maddənin az olması körpə üçün idealdır.

Bu iki süd amin turşularının tərkibində də fərqlənir. Bu fərqli kompozisiya inək südü ilə qidalanan körpələrin plazmasında ümumi amin turşularının yüksək səviyyəsinə gətirib çıxarır, bəzi amin turşuları həddindən artıq yüksək, digərləri isə qeyri-kafi olur. Bu, mərkəzi sinir sisteminə mənfi təsir göstərir və yüksək protein tərkibi böyrəklərə yükü artırır.

Ana südünü fərqləndirən digər xüsusiyyət onun tərkibindəki şəkərdir. Həm ana südü, həm də inək südü eyni növ şəkər, laktoza ehtiva edir. Bununla belə, insan südündəki laktoza miqdarı (litrdə 7 qram) inək südündən (litrdə 4,8 qram) çoxdur. Bundan əlavə, inək südündəki iri, laxtalanmış hissəciklər nazik bağırsaqdan çox yavaş keçir. Bu, əsas suyun və laktozanın böyük ölçüdə nazik bağırsağın birinci hissəsində sorulmasına imkan verir.

Ana südünün laxtalanmış hissəcikləri isə nazik bağırsaqdan asanlıqla keçir, su və laktoza isə yoğun bağırsağa çatır. Bu, insanlar üçün çox faydalı olan və faydalı bakteriyaların böyüməsini dəstəkləyən bağırsaq quruluşunu yaradır. Ana südündə bol olan laktozanın ikinci faydası odur ki, o, sinir sistemində mühüm strukturların əmələ gəlməsində rol oynayan "serebrozid" adlı maddənin sintezini asanlaşdırır.

Ana südü ilə inək südünün tərkibindəki yağ tərkibi demək olar ki, eyni olsa da, bu yağların keyfiyyəti fərqlidir. Ana südündəki linoleik turşu körpənin qidadan ehtiyac duyduğu yeganə yağ turşusudur.

Ana südünü fərqləndirən digər xüsusiyyət onun duz və mineral tərkibidir. İnək südünün tərkibində insan südündən qat-qat çox duz və mineral var. Məsələn, inək südündən daha çox kalsium və fosfor ehtiva edir. Ancaq bu iki maddənin nisbətləri o qədər fərqlidir ki, körpənin kalsium mübadiləsinə mənfi təsir göstərir. Buna görə də körpələrə həyatın ilk günlərində inək südü vermək onların qanında kalsium səviyyəsini aşağı sala və müəyyən sağlamlıq problemlərinə səbəb ola bilər. Bundan əlavə, ana südünün tərkibində 50% dəmir var. Bu miqdar inək südündə az olduğu üçün inək südü ilə qidalanan körpələrdə tez-tez dəmir çatışmazlığı anemiyası yaranır.

Vitamin tərkibi ana südünü körpələr üçün vacib edən başqa bir amildir. Ana südü və inək südü vitamin tərkibinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Hər iki süddə eyni miqdarda A vitamini olduğu halda, ana südündə E, C və K vitaminləri daha çoxdur. D vitamini də körpə üçün kifayət qədər miqdarda olur.

Ana bətnindəki qorunan və mikrobsuz mühitdən dünyaya çıxan körpə xarici aləmdə çoxsaylı mikroblarla mübarizə aparmalıdır. Ana südünün ən mühüm xüsusiyyətlərindən biri də infeksiyalara qarşı qorunmasıdır. Ana südündə uşağa ötürülən qoruyucu hüceyrələr (antikorlar) körpənin əvvəllər tanımadığı mikroblarla sanki onlardan xəbərdarmış kimi mübarizə aparmasına şərait yaradır. Xüsusilə doğumdan sonra ilk bir neçə gün ərzində ifraz olunan "kolostrum" adlanan süddə bol olan antikorlar birbaşa qoruyucu təsir göstərir.

Ana südünün uşağa yüngüldən çox ciddiyə qədər infeksiyalara qarşı təmin etdiyi bu qoruma ilk bir neçə ayda xüsusilə vacibdir və faydaları ana südü ilə qidalanma müddəti ilə mütənasib olaraq artır.

Ana südünün körpə üçün faydaları hər gün daha aydın görünür. Ana südü ilə bağlı yeni kəşf edilən faktlardan biri də körpənin iki il ana südü ilə qidalanmasının son dərəcə faydalı olmasıdır. Elmin yeni kəşf etdiyi bu mühüm məlumat 14 əsr əvvəl Quranda bizə belə bildirilmişdir:

"Biz insanlara ata-anasını tövsiyə etdik. Anası onu sıxıntının üstünə sıxıntı ilə daşıdı. O, iki il ərzində süddən kəsiləcək. Mənə və ata-anana şükür et, dönüş Mənədir". (Loğman surəsi, 14)

Təkamülçülər insanın təkamülü yalanına dəlil kimi üstün yaradılışın dəlili olan doğuşdan istifadə etməyə çalışmışlar. Yeni bir insanın yaradılışındakı hər mərhələnin çox dəqiq bir proqrama görə baş verdiyi bu gün embriologiyada danılmaz bir həqiqətdir. Bəs təkamülçülər bu yaradılış həqiqətini necə özlərinə dəlil kimi təqdim etməyə çalışırlar? 19-cu əsrin sonlarında təkamülçü bioloq Ernst Hekkel "Ontogenez Filogenizi



təkrarlayır" tezisini irəli sürdü. Bu tezisə görə, Hekkel canlı rüşeymlərin inkişafı əsnasında əcdadlarının keçirdikləri təkamül prosesini təkrarladıqlarını müdafiə edirdi. Məsələn, o, insan rüşeyminin ana bətnində inkişafı zamanı əvvəlcə balıq, sonra sürünən xüsusiyyətlər nümayiş etdirdiyini və nəhayət insana çevrildiyini irəli sürdü.

Tezliklə bu tezisin yalan olduğu aydınlaşdı. İnsan rüşeyminin ilk dövrlərində meydana çıxdığı iddia edilən "qəlsəmələrin" əslində insanın orta qulaq kanalı, paratiroid vəzləri və timus vəzlərinin başlanğıcı olduğu məlum oldu. Embrionun yumurta sarısı kisəsinə bənzədilmiş hissəsinin əslində körpə üçün qan istehsalından məsul olan bir kisə olduğu ortaya çıxdı. Quyruq olduğu iddia edilən hissənin isə insanın onurğa beyni olduğu dəqiqləşdi.Hekkel bu nəzəriyyəni irəli sürdükdən qısa müddət sonra təkamülçülər özləri də onun əsassızlığını etiraf etdilər. Neo-darvinizmin aparıcı simalarından olan Corc Qaylord Simpson bu nəzəriyyənin əsassızlığını belə ifadə etmişdir:

"Hekel təkamül inkişafını səhv təqdim etdi. Bu gün canlıların embrioloji inkişafının onların keçmişini əks etdirmədiyi qəti şəkildə məlumdur".

Hekkelin nəzəriyyəsinin əsassızlığı 1920-ci illərdə aparılan elmi müzakirələrdə də etiraf edildi. Sonradan (1950-ci illərdə) bu mövzu dərsliklərdən tamamilə çıxarıldı.

Hekkel öz nəzəriyyəsini irəli sürərkən təkamülçü elm adamlarının ənənəsini pozmamış, hətta nəzəriyyəsi ilə bağlı xəyali rəsmlər də çıxarmışdır. Embriologiya elmi bir qədər də inkişaf etdikdə və iddialarının saxta olduğu ortaya çıxanda , o, digər həmkarlarından fərqli bir yol getmədiyini etiraf etdi:

"Bu saxtakarlıq etirafından sonra özümü utanmış və qınanmış hesab etməliyəm. Amma mənim təsəllivericim budur: Günahkar vəziyyətdə yan-yana durduğumuz yüzlərlə dostumuz, çoxlu etibarlı müşahidəçilərimiz və bir çox məşhur bioloqlar var ki, onların ən yaxşı biologiya kitablarında, tezislərində və jurnallarında mənimki ilə eyni dərəcədə saxtakarlıqlar, qeyri-dəqiq məlumatlar, təhrif edilmiş, sxemləşdirilmiş və yenidən təşkil edilmiş rəqəmlər var".

Bu etiraf həm də Hekkelin embriologiyanı təkamülə dəlil kimi istifadə etmək cəhdlərinin tamamilə cəfəngiyyat olduğunu ortaya qoydu.

Bütün insanlar ana bətnində sadə sperma hüceyrəsi kimi yaranıblar. Xüsusi yaradılmış şəraitdə onlar bir yumurta ilə birləşdilər və sonra tək bir hüceyrə kimi həyata başladılar. İlk insandan bəri hər bir insan bu prosesi yaşamış və yazımızda təsvir etdiyimiz möcüzəli mərhələlərdən keçmişdir.

Yaradıcı Quranda bunu bizə belə bildirir:

"Məgər insan onu bir damla sudan yaratdığımızı görmürmü? İndi o, aşkar düşmənə çevrilib. O, öz yaradılışını unutdu və Bizə inanmayıb dedi: "Bu sümüklər çürüdükdən sonra onları kim dirildəcək?" De: "Onları ilk yaradan diriləcək. O, hər bir məxluqatı bilir". (Yasin surəsi, 77-79)

Həyatın cansız maddədən təsadüfən əmələ gəldiyini iddia edən təkamül nəzəriyyəsi kainatdakı və canlılardakı möcüzəvi nizamın elmi şəkildə nümayişi ilə təkzib edilmişdir. Beləliklə, Qüdrətli Yaradanın bütün kainatı və canlıları mükəmməl proqramla yaratması elmlə sübuta yetirilmişdir. Bu gün təkamül nəzəriyyəsini yaşatmaq üçün dünya miqyasında aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, qərəzli şərhə, elm pərdəsi altına alınmış yalanlara və saxtakarlığa əsaslanır.

Lakin bu təbliğat həqiqəti gizlədə bilmədi. Elm inkişaf etdikcə Yaradılışın möhtəşəmliyi daha aydın faktlarla sübut olunur və elm tərəfindən etiraf edilir. Növbəti hissələrdə elmin bu sahədə ortaya qoyduğu çoxsaylı faktları təqdim edəcəyik.

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
15 iyul 2025-ci il

# Qurd xəstəliyi niyə artıb?

## HƏKİM AÇIQLADI





"Parazitar infeksiyalar - yəni helmintozlar (qurt xəstəlikləri) - ümumilikdə istənilən yaş dövründə müşahidə oluna bilər. Lakin bu xəstəliklər əsasən uşaqlar arasında daha çox yayılmış olur. Bunun əsas səbəblərindən biri uşaqlarda gigiyena qaydalarına yetərincə riayət edilməməsidir. Uşaqlar çox zaman bilmədən müxtəlif səthlərə (xüsusilə də torpaqla təmasda olan əşyalara) əlləri ilə toxunurlar və həmin əlləri ağız, burun və göz kimi selikli qişalarla təmas etdirirlər. Nəticədə mikroorqanizmlər, o cümlədən parazit yumurtaları orqanizmə daxil olaraq həzm sisteminə çatır və orada yerləşərək çoxalmağa başlayır". Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Hacıyev deyib.

Sübhan Hacıyev sözlərinə belə davam edib: "Bu yolla orqanizmə daxil olan parazitlərə misal olaraq lyamblia, askarid, enterobiyoz və digər helmintlər göstərilə bilər. Bu infeksiyalar uzun müddət insan orqanizmində simptom vermədən yaşaya bilər və yalnız müəyyən klinik əlamətlərlə özünü biruzə verər.

Parazitar xəstəliklərin əlamətləri aşağıdakılardır:

* Ümumi halsızlıq və zəiflik
* Səbəbsiz iştahsızlıq və ya acqalma
* Gecələr dişlərin bir-birinə sürtülməsi (bruksizm)
* Ağız suyu axması
* Artan əsəbilik və narahatlıq
* Qazların artması, köp, qarın nahiyəsində narahatlıq
* Səbəbsiz qarın getmələri və ya qəbizlik
* Dəridə solğunluq və ya qaşıntılar

Xəstəliyin əsas təhlükəsi ondan ibarətdir ki, parazitlər bir nəfərdə olduqda, gigiyenik tədbirlərə riayət edilmədikdə bu infeksiya eyni məişət mühitində yaşayan digər ailə üzvlərinə də keçə bilər. Nəticədə bir ailə üzvü uzun müddət müalicə olunsa belə, infeksiya mənbəyi sağalmadıqda xəstəlik təkrarən qayıda bilər. Bu səbəbdən bir nəfərdə parazitar xəstəlik aşkarlanarsa, profilaktik məqsədlə bütün ailə üzvlərinin eyni vaxtda müalicə kursu keçməsi tövsiyə olunur.

Qeyd edilməlidir ki, bu xəstəliklərin aşkarlanması üçün qan analizi etibarlı metod sayılmır. Parazitar infeksiyaların aşkarlanması üçün əsas diaqnostik üsul nəcis analizidir. Lakin bəzi hallarda laborator analizlərdə nəticə çıxmasa belə, klinik simptomlar olduqda, həkimlər genişspektrli antiparazitar dərmanlarla müalicəyə başlaya bilərlər".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bakıda evlərdən 11 min manatlıq oğurluq olub



Bakıda evlərdən 11 min manatlıq oğurluq olub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Səbail və Nərimanov rayonlarında evlərdən pul oğurlayan 2 şəxs saxlanılıb. Zərərçəkənlər polisə müraciət edərək yaşadıqları evlərdən ümumilikdə 11 min manata yaxın pul vəsaitinin oğurlandığını bildirib. Polis əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində əməlləri törətməkdə şübhəli bilinən 40 yaşlı S.Məmmədova və 68 yaşlı A.Qasımov müəyyən olunaraq saxlanılıblar. Araşdırmalar aparılır.



## Fransızlar ŞOKDA - həbsxanadan çantada gizlənib qaçdı...

Fransanın cənub-şərqindəki Korba şəhərindəki həbsxanadan 20 yaşlı məhbus azadlığa çıxan kamera yoldaşının əşyaları olan çantada gizlənərək qaçmağı bacarıb. BFMTV kanalının məlumatında deyilir ki, həbsxana rəhbərliyi hadisədən bir gün sonra xəbərdar olub. Məhbus, insan alveri və oğurluq da daxil olmaqla bir neçə cinayətə görə cəza çəkib və həmçinin mütəşəkkil cinayətkarlıqla əlaqədə olduğu üçün istintaq altında olub. Hadisə ilə bağlı Penitensiar Müəssisə daxili araşdırmalara başlayıb.

## Bu gün 40 dərəcə isti olacaq - XƏBƏRDARLIQ



Azərbaycanda iyulun 15-də havanın yağmursuz keçəcəyi, 40 dərəcə isti olacağı gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən bildirilib. Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək, Havanın temperaturu gecə 22-26° isti, gündüz 34-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-70 %, gündüz 35-40 % olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman. Şərq küləyi əsəcək. Havanın temperaturugecə 22-27° isti, gündüz 36-40° isti, dağlarda gecə 10-15° isti, gündüz 26-31° isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**